2 iyul 2021 №49 (1826)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Uzunmüddətli sülh artıq investorlar üçün də gün kimi aydın məsələdir

İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə və Dağlıq Qarabağ münaqişəsinin həlli artıq yeni bir vəziyyət yaradıb. Hesab edirəm ki, uzunmüddətli sabitlik, sülh artıq investorlar üçün də gün kimi aydın məsələdir.

Prezident İlham Əliyev bu sözləri iyulun 1-də Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində Azərbaycan Televiziyasına müsahibəsində deyib.

Ələt Azad İqtisadi Zonasının yaradılmasının ölkəmizdə investisiya mühitinin daha da yaxşılaşdırılması baxımından əhəmiyyətini vurğulayan dövlət başçısı qeyd edib ki, Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biridir. İnvestorlar üçün bu amil də çox önəmlidir: "Azərbaycanda mədəniyyətlərarası dialoq, dini tolerantlıq məsələləri dünya miqyasında artıq nümunə kimi göstərilir. Biz istəyirik ki, bütün dünya ölkələri buraya gəlsinlər və investisiya qoysunlar. Bu amil də çox önəmlidir. Digər tərəfdən, ölkəmizdə mövcud olan sabitlik hər bir investor üçün əsas şərtlərdən biridir. Sabitlik olmayan ölkələrə heç kim sərmayə qoymur. Bu gün Azərbaycana qoyulan və qoyulacaq sərmayələrin əsas şərtlərindən biri, bəlkə də birincisi ictimai-siyasi sabitlikdir, xalq-iqtidar arasındakı birlikdir.

Digər vacib amil ondan ibarətdir ki, bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir. Yəni, nəyi deyiriksə, onu da edirik. Sözümüzü tutan insanlarıq və həyat bunu dəfələrlə göstərib. İnvestorlar üçün çox cəlbedici şərait yaradılıb. Təkcə neft-qaz layihələrinə baxmaq kifayətdir görək ki, 1994-cü ildən bu günə qədər imzalanmış kontraktlarda bir vergül belə dəyişdirilməyib. Ancaq bir çox yerlərdə müəyyən mərhələ keçəndən sonra ölkələr şərtləri özlərinə daha uyğun tərzdə dəyişdirməyə cəhd göstərirlər".

Prezident vurğulayıb ki, bütün bu amillər və Azərbaycanın işğal altındakı torpaqlarını azad etməsi, Dağlıq Qarabağ münaqişəsinə son qoyulması və bizim gələcəyimizə olan inam, xarici sərmayədarları bu zonaya cəlb edəcək.

*davamı səh. 2-də*

## "Karabakh. Center" layihəsi otuzillik işğalın nəticələrini dünyaya çatdıracaq

İyunun 30-da Qarabağ Dirçəliş Fondunun "Karabakh. Center" ("Qarabağ. Mərkəz") layihəsinin təqdimatı olub. Qarabağ Dirçəliş Fondu Müşahidə Şurası üzvlərinin, ictimai xadimlərin qatıldığı tədbirdən öncə erməni vandallarının Qarabağda törətdiyi dağıntıları əks etdirən fotosərgiyə baxış olub. Bildirilib ki, nümayiş etdirilən fotoların əksəriyyəti AZƏRTAC-ın fotomüxbirləri tərəfindən çəkilib.



Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev təqdimatı açaraq qeyd edib ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə eyni zamanda Azərbaycan xalqının bütün dünyaya özünəməxsus mesajı oldu. Azərbaycan xalqı dünyaya nümayiş etdirdi ki, ədalətsizliklə heç vaxt barışmayıb və milli maraqları qorumaq üçün "dəmir yumruq" kimi birləşməyi bacarır.

Vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərdə dağıntıların miqdarı həddindən artıq böyükdür. Tikililərin, tarixi abidələrin dağıdılması ilə yanaşı, təbii sərvətlərin amansızcasına istismar olunması, meşələrin qırılması, çay və göllərin çirkləndirilməsi nəticəsində regionun ekologiyasına da böyük zərər vurulub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondunun həyata keçirdiyi "Qarabağ. Mərkəz" layihəsi bütün bu zərərin miqyasını dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyır.

Layihə barədə məlumat verən R.Hacıyev qeyd edib ki, internet resursunda toplanan çoxsaylı materiallar xalqımızın Qarabağdakı maddi mədəni irsinə, regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaradır. Burada işğal altında olan ərazilərdəki dağıdılmış və ciddi ziyan dəymiş obyektlərin 10 mindən çox fotoşəkli və videogörüntüsü yer alır. Bütün fotoşəkillər və videolar saytın "Urbisid" (yaşayış yerlərinin məhv edilməsi) bölməsində yerləşdirilib. Bölmədə memarlıq abidələrinin işğaldan əvvəl çəkilmiş yüzlərlə fotoşəkli ilə də tanış olmaq mümkündür.

*davamı səh. 4-də*

## Budapeştdə "Nizami Gəncəvi İli"

Macarıstanda rəsmi səfərdə olan Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan nümayəndə heyəti iyunun 29-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) Budapeşt nümayəndəliyinin ofisində "Nizami Gəncəvi İli"nə həsr olunmuş tədbirdə iştirak edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbiri Türk Şurasının Budapeşt ofisinin rəhbəri Yanoş Hovari açaraq Azərbaycan nümayəndə heyətini salamlayıb. O, Türk Şurası çərçivəsində əməkdaşlıqdan bəhs edərək Macarıstanın bu qurumda müşahidəçi qismində fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb.

Macarıstan Xarici İşlər Nazirliyinin dövlət katibinin müavini Andraş Baranye çıxış edərək Azərbaycan ilə Macarıstan arasında münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri haqqında danışıb. A.Baranye Türk Şurası çərçivəsində həyata keçirilən əməkdaşlığın iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini qeyd edib.

Milli Məclisin sədri Sahibə Qafarova çıxış edərək Türk Şurasının Budapeştdəki ofisini dərin tarixi kökləri rəmzləşdirən, Türk dünyası ilə macarları birləşdirən məkan kimi yüksək dəyərləndirib. Qeyd edib ki, hazırda həm Macarıstan, həm də türkdilli dövlətlər əməkdaşlığı dərinləşdirmək üçün səy göstərirlər.



Macarıstan Türk Şurasına üç il əvvəl müşahidəçi statusunda qəbul edilsə də, əlaqələrin möhkəmləndirilməsi üçün ötən müddətdə xeyli addımlar atılıb.

*davamı səh. 3-də*

## Mədəniyyət naziri Misirin ölkəmizdəki səfiri ilə görüşüb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyunun 30-da Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim ilə görüşüb.

Görüşdə mədəniyyətin müxtəlif sahələrində təcrübə mübadiləsi, iki ölkə arasında mədəni əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

*səh. 3*

## İslam Dünyası İrsi Siyahısına daha 97 tarixi-mədəniyyət abidəsi daxil ediləcək

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) nəzdində fəaliyyət göstərən İslam Dünyası İrs Komitəsinin (İWHC) 9-cu iclası keçirilib.

Təşkilatdan bildirilib ki, komitənin iclasında daha 97 tarixi-mədəniyyət abidəsinin İslam Dünyası İrsi Siyahısına daxil edilməsi barədə qərar qəbul edilib. Siyahı yaxın günlərdə təşkilatın saytında dərc ediləcək.

*səh. 2*

## İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı üzrə beşillik proqram hazırlanıb

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində daşınmaz əmlakın inventarlaşdırma işləri davam edir. Ötən dövr ərzində 10 rayon üzrə 177 yaşayış məntəqəsində daşınmaz əmlakın ilkin inventarlaşdırma işləri yekunlaşıb, 2 yaşayış məntəqəsində işlər davam etdirilir. 409 yaşayış məntəqəsinin tamamilə dağıdılıb yararsız hala gətirildiyi müəyyən edilib.



Bu barədə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahı nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi Məsələlər işçi qrupunun iyunun 30-da keçirilən iclasında məlumat verilib.

Videoformatda keçirilən iclasda bildirilib ki, ötən dövr ərzində Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan, Ağdam, Xocavənd, Tərtər, Şuşa, Xocalı və Kəlbəcər rayonları üzrə cəmi 13 307 daşınmaz əmlakın (10 483 ədəd tikili və 2 824 ədəd infrastruktur obyekti) çöl inventarlaşdırma işləri tamamlanıb. 1 525 km avtomobil yolunun, 292 km elektrik verilişi xəttinin, 45 km qaz təchizatı xəttinin, 19 km su təchizatı xəttinin, 249 km suvarma şəbəkəsinin ilkin inventarlaşdırılması başa çatdırılıb. Bundan əlavə, 533 000 ha torpaq sahəsi ortofoto xəritələr əsasında vektorlaşdırılaraq elektron məlumat bazasına daxil edilib.

İşğaldan azad edilmiş ərazilərdə xidmət göstərən şəxslərin ilkin istehlak tələbatlarını ödəmək üçün ərzaq, əczaçı dükanları, bankomatların və s. açılması məqsədilə iş adamlarının iyul ayı ərzində Kəlbəcər və Laçın rayonlarına səfərinin təşkili ilə bağlı məsələ müzakirə edilib, səfərin proqramı və marşrutunun hazırlanması, həmçinin təhlükəsizlik məsələlərinin təmin olunmasının vacibliyi qeyd edilib.

*davamı səh. 2-də*




## Futbol azarkeşləri üçün teatr

AVRO-2020-nin Bakıda keçiriləcək 1/4 final oyununa həsr edilən açıq hava teatrı təşkil olunub.

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin qarşısında qurulan səhnədə Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı aktyorlarının iştirakı ilə danimarkalı yazıçı Hans Kristian Andersenin məşhur "Düyməcik" və "Qar kraliçası" nağıllarından parçalar nümayiş olunur. Saat 21:00-dan saat 23:00-a qədər davam edən açıq hava teatrının ilk tamaşası iyulun 1-də olub. Daha bir təqdimat 2 iyulda olacaq.

Təşəbbüsün məqsədi AVRO-2020 həyəcanını fərqli aspektdən göstərmək və hər kəsdə xoş təəssürat yaratmaqdır. Qeyd edək ki, iyulun 3-də Bakı Olimpiya Stadionunda keçiriləcək 1/4 final oyununda Çexiya və Danimarka yığmaları üz-üzə gələcək.

## Qədim Qarabağın yenilənən siması

### 5 kənd və 1 qəsəbə üçün müsabiqə elan edilib

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi "Qədim Qarabağın yenilənən siması" adlı müsabiqə proqramına start verib.

Komitədən verilən məlumata görə, Qarabağın bir sıra kənd və qəsəbələrini əhatə edəcək müsabiqə proqramının ilk mərhələsində Ağdam rayonunun Sarıcanlı, Füzuli rayonunun Horadiz, Kəlbəcər rayonunun Zar, Laçın rayonunun Şəlvə və Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndləri, həmçinin Cəbrayıl rayonunun Xudafərin qəsəbəsi ilə bağlı layihələr qəbul olunacaq.

Layihələrdə yaşayış məskənlərinin gələcək sosial, iqtisadi, texnoloji inkişaf istiqamətləri, milli memarlıq ənənələrinə bağlılıq, yüksək bədii-estetik görünüş və həyat keyfiyyəti, mühit-məkan həllinin müəyyənləşdirilməsi kimi vacib məqamlar əksini tapmalıdır.

Ümumi mükafat fondu 60 000 manat olan müsabiqədə layihə müəllifləri fərdi və ya qrup şəklində iştirak edə bilərlər. Müsabiqədə iştirak etmək istəyənlər 15 iyul 2021-ci il tarixinədək qeydiyyatdan keçməli, layihələr 31 iyul tarixinədək Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim olunmalıdır. Nəticələr 15 avqustda elan olunacaq.

Layihə ilə bağlı "Qədim Qarabağın yenilənən siması" internet səhifəsi (www.bizimqarabagh.az) də hazırlanıb. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən digər kəndləri də əhatə edəcək müsabiqələrin keçirilməsi planlaşdırılır.

## "Vağzalı"nın çalınma vaxtıdır...

Əslində, rəqsin melodiyasının vağzalla heç bir əlaqəsi yoxdur. Dədə Qorqud dövründən sonra gəlini bəzədilmiş faytonda aparıblar, ona görə də havanın adına "Atlanma" deyiblər.

1936-cı ildə isə Səid Rüstəmov "Vağzalı" rəqsini notlaşdırmışdır. Bu rəqs "Segah" məqamında, moderato tempində və 6/8 ölçüsündə bəstələnmişdir. "Vağzalı"nın melodiyası dinləyicidə sevinc və həsrət hisslərinin vəhdətini təşkil edir. Övladını yola salan ailə ayrılıq, hicran hissləri keçirirsə, oğlan evinin nümayəndələri isə tam fərqli ovqatda olur...

*səh. 7*

## "Nizami romans"ın qalibləri mükafatlandırılıb



*səh. 3*

## Respublika Uşaq Kitabxanası əlyazma kitab müsabiqəsi elan edib

*səh. 5*



## Qala düzü abidəsində ilkin tədqiqatlar aparılıb

*səh. 4*

# Uzunmüddətli sülh artıq investorlar üçün də gün kimi aydın məsələdir



əvvəli səh. 1-də

Qeyd edək ki, Ələt Azad İqtisadi Zonasının yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlət başçısına məlumat verib. Bildirilib ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektar olacaq. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər uğurla davam edir. Ələt Azad İqtisadi Zonasının yaradılması bunun bariz nümunəsidir. Bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq.

Bu məqamları Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində də diqqətə çatdırıb.

Azad iqtisadi zona üçün niyə məhz Ələt qəsəbəsinin seçilməsindən danışan dövlət başçısı qeyd edib ki, bu ərazidə böyük boş torpaq sahələri var və bu torpaq sahələrinin mütləq əksəriyyəti kənd təsərrüfatı üçün yararsız torpaqlardır: "Digər tərəfdən, Ələt qəsəbəsi Bakı şəhərinə yaxındır. Bu da vacib şərtlərdən biridir. İnfrastruktur layihələrinin icrası üçün artıq bütün ilkin şərtlər vardır. Səngəçalda 300 meqavat gücündə elektrik stansiyası mövcuddur və infrastruktur layihələrinə qoyulan xərclər də nisbətən az olacaq. Burada Beynəlxalq Dəniz Limanı yerləşir. Bu da iqtisadi zonanın fəaliyyəti üçün önəmli amillərdən biridir. Hesab edirəm ki, Ələtin inkişaf perspektivi də çox uğurlu ola bilər. Əgər bu zona istədiyimiz kimi formalaşsa, – mən buna əminəm, – bu bölgənin inkişaf dinamikası ümumi inkişafımıza da böyük müsbət təsir göstərəcək. Eyni zamanda, buradan bizim beynəlxalq dəhlizlərimiz də keçir. Şərq-Qərb dəhlizi, Şimal-Cənub dəhlizi Ələtin ərazisindən keçir. Ona görə logistika, nəqliyyat baxımından bu yer çox əlverişlidir. Məhz buna görə Ələt bu məqsədlər üçün seçilmişdir".

Prezident qeyd edib ki, bu gün dünyanın müxtəlif ölkələrində azad iqtisadi zonalar var. Bəzi ölkələrdə bunu təbii şərait, coğrafi yerləşmə şərtləndirir: "Açıq dənizlərə çıxışı olmayan ölkələrdə azad iqtisadi zonaların yaradılması təcrübəsi o qədər də uğurlu deyil. Biz uğurlu və uğursuz təcrübəni öyrənmişik, təhlil aparmışıq. Hesab edirik bu gün Azərbaycanda bütün ilkin şərtlər var ki, investorları məhz bu zonaya cəlb edək. Hesab edirəm ki, ilk növbədə, bu yerin coğrafi vəziyyəti əlverişlidir – dənizin kənarında, dəniz limanının böyründə yerləşir, kifayət qədər böyük ərazidir. İlkin mərhələdə artıq 60 hektarlıq yer inkişaf üçün hazırdır. Amma, ümumiyyətlə, 850 hektar torpaq sahəsi ayrılıb".

Dövlət başçısı əlavə edib ki, Azərbaycandakı sərmayə iqlimi həm neft-qaz layihələrinin icrası zamanı özünü göstərib, həm də digər sahələrdə aparılan islahatlar nəticəsində çox gözəl investisiya iqlimi yaradılıb: "Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Biz bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlamışıq".

Prezident onu da diqqətə çatdırıb ki, indiyədək görülən işlərdə dövlət sərmayəsi artıq öz rolunu oynayıb: "Biz bütün əsas infrastruktur layihələrini icra etmişik. Təbii ki, azad edilmiş torpaqlarda indi böyük tikinti-quruculuq işlərinə start verilir. Bu da böyük iqtisadi canlanmaya gətirib çıxaracaq. Ancaq biz başa düşməliyik ki, birbaşa xarici investisiyalar olmadan ölkəmiz istədiyimiz qədər inkişaf edə bilməz. Ona görə, başqa ölkələrlə hökumətlərarası komissiyaların işi də, ilk növbədə, xaricdən vəsaiti Azərbaycana gətirməkdir. Hesab edirəm ki, məhz bu zona potensial investorlar üçün cəlbedici ola bilər".

Ələt Azad İqtisadi Zonasının bir ildən sonra – gələn ilin iyul ayında investorları qəbul etməyə hazır olacağını deyən İlham Əliyev əmin olduğunu bildirib ki, layihə ilə bağlı təqdimatda göstərilən mənzərə həyatda öz əksini tapacaq: "Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır".

# İşğaldan azad edilmiş ərazilərin bərpası və inkişafı üzrə beşillik proqram hazırlanıb

əvvəli səh. 1-də

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi və müqayisəli üstünlük sahələrinin müəyyən edilməsi istiqamətində yerli və xarici ekspertlərlə əməkdaşlığa start verilib. Bu istiqamətdə AMEA-nın İqtisadiyyat İnstitutu və "Boston Consulting Group" məsləhətçi şirkəti ilə birgə müvafiq işlər aparılır.

İqtisadiyyat Nazirliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, ölkə iqtisadiyyatına inteqrasiyası, dayanıqlı və tarazlı inkişafının təmin olunması, yüksək standartlara cavab verən sosial rifaha nail olunması məqsədilə aidiyyəti dövlət qurumlarının rəyi nəzərə alınmaqla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı Dövlət Proqramı"nın layihəsi hazırlanıb.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müraciətlərin qəbulu, təhlili, sahibkarların məlumatlandırılması, müvafiq tövsiyələrin verilməsi və müraciətlərin aidiyyəti olaraq yönləndirilməsi işləri İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən təmin edilir. Hazırkı dövrə qədər 600-dən artıq müraciət daxil olub. İnvestisiya layihələrinin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir.

Dövlət Turizm Agentliyinin nümayəndəsi öz hesabatında bildirib ki, turizm resurslarının qiymətləndirmə metodologiyası əsasında turizm resurslarının qiymətləndirilməsi turizm və rekreasiya zonaları, nəqliyyat dəhlizləri və tematik mövzular üzrə (turizm marşrutları üzrə) aparılır. Turizm məhsullarının inkişaf etdirilməsi istiqamətində "Yolumuz Qarabağa" turizm marşrutunun konsepsiyası çərçivəsində "Yolumuz Ağdama" və "Füzuli-Xocavənd" tur proqramlarının layihələri hazırlanıb. Bölgənin "Milyon ürək, bir bağ" turizm destinasiya brendinin yaradılması istiqamətində işlər aparılıb, həmçinin regionun turizm potensialı 2021-ci il may və iyun ayında Dubay və İstanbul şəhərində keçirilən beynəlxalq sərgilərdə təbliğ edilib.

Təqdim olunan hesabatlar İşçi qrupunun üzvləri tərəfindən geniş müzakirə edilib və tövsiyələr verilib.

Ölkə başçısının 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# İslam Dünyası İrsi Siyahısına daha 97 tarixi-mədəniyyət abidəsi daxil ediləcək

İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatının (İCESCO) nəzdində fəaliyyət göstərən İslam Dünyası İrs Komitəsinin (İWHC) 9-cu iclası keçirilib.



Təşkilatdan bildirilib ki, komitənin iclasında daha 97 tarixi-mədəniyyət abidəsinin İslam Dünyası İrsi Siyahısına daxil edilməsi barədə qərar qəbul edilib. Siyahı yaxın günlərdə təşkilatın saytında dərc ediləcək.

Beləliklə, İslam Dünyası İrsi Siyahısına daxil edilmiş tarixi-mədəniyyət abidələrinin ümumi sayı 320-yə çatıb.

İclasda çıxış edən İCESCO-nun mədəniyyət və kommunikasiya bölməsinin rəhbəri Məhəmməd Zeynəlabidin qeyd edib ki, təşkilatın Baş direktoru Salim Məhəmməd əl-Malik İslam ölkələrində tarixi-mədəniyyət abidələrinin siyahıya alınması, onların mühafizəsinə və beynəlxalq aləmdə təbliğinə böyük əhəmiyyət verir. Bu məqsədlə təşkilatın müvafiq strukturu maddi və qeyri-maddi mədəni irs nümunələrinin müəyyən olunması istiqamətində üzv ölkələrlə sıx əməkdaşlıq edir.

İclasda COVİD-19 pandemiyası şəraitində tarixi abidələrin və muzeylərin vəziyyəti ilə əlaqədar məlumatların İCESCO-ya təqdim edilməsinə, habelə İslam Dünyası İrsi Ensiklopediyasının hazırlanmasında iştiraka dair təşkilata üzv ölkələrin uyğun strukturlarına müraciət qəbul olunub. Bəşər sivilizasiyasına məxsus olan və silahlı münaqişə zonalarında yerləşən tarixi-mədəniyyət abidələrinin mühafizəsi məsələsi də müzakirə edilib.

# Azərbaycan ərazisindəki bütün abidələr dövlətimizin mədəni irsinə aiddir

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (ATƏT PA) illik sessiyası iyunun 30-da başlayıb. Qarışıq formatda keçiriləcək tədbirə Milli Məclisin deputatları onlayn şəkildə qoşulacaqlar. Vyanada – təşkilatın qərargahında keçirilən toplantıda isə Azərbaycanın ATƏT PA-dakı nümayəndə heyətinin rəhbəri, qurumun vitse-prezidenti Azay Quliyev iştirak edəcək.

ATƏT PA-nın yaz sessiyası çərçivəsində Demokratiya, insan haqları və humanitar məsələlər Komitəsinin onlayn iclasında Azərbaycan nümayəndə heyətinin üzvü Əminə Ağazadə Ermənistan nümayəndələrinin çıxışlarına cavab verib. Millət vəkili erməni tərəfinin iradlarına cavab olaraq bildirib ki, dövlətlər öz ərazilərini "işğal" etmir, öz torpaqlarını azad edir. Azərbaycan 44 günlük müharibədə öz torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa edib.



Deputat qeyd edib ki, Azərbaycan ərazisindəki bütün mədəni və dini abidələr Azərbaycan dövlətinin və xalqının mədəni irsinə aiddir: "Ermənistan həm 30 ildir işğal etdiyi ərazilərdə, həm də Ermənistan ərazisində Azərbaycanın mədəni irsini məhv etmək, dağıtmaq və mənimsəmək üçün sistematik siyasət yürüdüb. Ermənistan tarixi abidələri dağıtmaqla, onların memarlıq xüsusiyyətlərini dəyişdirməklə və "arxeoloji" qazıntılar aparmaqla öz qarşısına Azərbaycan mənşəyindən xəbər verən hər hansı bir işarənin tamamilə silinməsini hədəfləyən məqsədlər qoyub. Məscidlər və digər ibadət yerləri, qəbiristanlıqlar, arxeoloji sahələr, həmçinin muzeylər, kitabxanalar və digər mədəniyyət obyektləri ya tamamilə məhv edilib, ya da talan olunub. Məscidlər dağıdılıb və xarabalığa çevrilib. 67 məsciddən 64-ü darmadağın edilib və ya ciddi ziyan görüb. Xarakterik xüsusiyyətlərini dəyişdirmək məqsədilə bir çox orijinal Azərbaycan mədəni obyekti amansız müdaxilələrə məruz qalıb. Bu hərəkətlər 1954-cü ildə qəbul edilmiş "Silahlı münaqişə baş verdikdə mədəni mülkiyyətin qorunması" üzrə Haaqa Konvensiyası və onun iki Protokolu, "Qeyri-qanuni qadağan edilmə və mədəni sərvətlərə sahiblik hüquqlarının idxalı, ixracı və ötürülməsinin qarşısının alınması" Konvensiyası kimi UNESCO sənədləri də daxil olmaqla, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması deməkdir".

Əminə Ağazadə bildirib ki, Ermənistan UNESCO-nun və digər ixtisaslaşmış beynəlxalq qurumların Azərbaycanın işğal olunmuş ərazilərini ziyarət etməsinə və oradakı mədəni irsin vəziyyətini qiymətləndirməsinə davamlı olaraq mane olub, ölkəmizin bu məqsədlə UNESCO-ya və digər təşkilatlara etdiyi çoxsaylı müraciətləri icra olunmamış qalıb. "Bu da öz növbəsində Ermənistanın "cəzasızlıq" hissinin formalaşmasında rol oynayıb. Reallıqda Ermənistanın sistematik vandalizm aktları qarşısında Azərbaycan öz mədəni irsini qorumaq imkanlarından məhrum olmuşdur. Azərbaycan dövləti ən yüksək səviyyədə azad olunan ərazilərdəki bütün mədəni və dini abidələrin mənşəyindən asılı olmayaraq lazımi qaydada bərpa ediləcəyini, orada yenidənqurma işlərinin aparılacağını qətiyyətlə bildirir. Bizim həm ölkə daxilində, həm də xaricdə multikulturalizmin təbliğində təcrübəmiz bu baxımdan əhəmiyyətli zəmanət verir. Azərbaycan Kəlbəcər rayonunda yerləşən Xudavəng monastırına müntəzəm səfərləri asanlaşdırmaqla artıq erməni mənşəli vətəndaşlarına qarşı da öz humanist niyyətlərini nümayiş etdirir", - deyə o əlavə edib.

Deputat onu da diqqətə çatdırıb ki, Azərbaycan beynəlxalq ictimaiyyətə özünü fərqli mədəniyyətlərin, etnik və dinlərin dinc və birlikdə yaşadığı bir ölkə olaraq tanıdıb: "Azərbaycan özünü bu ideyaların əsl təbliğatçısı kimi sözlərlə deyil, "Bakı Prosesi" və digər təşəbbüsləri ilə sübut edib. Azərbaycan bu nailiyyətləri davam etdirəcək və mədəni hüquqlar da daxil olmaqla, etnik və dini mənsubiyyətlərindən asılı olmayaraq hər bir vətəndaşı üçün bütün hüquqları təmin edəcək. Azərbaycan BMT-nin humanitar yardım üzrə rəhbər prinsiplərinə tam uyğun olaraq bölgədəki sülhə və sabitliyə töhfə verməyə hazır olan Beynəlxalq Qırmızı Xaç Komitəsinin, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və digər BMT qurumları ilə yanaşı, ayrı-ayrı dövlətlər də daxil olmaqla, müvafiq beynəlxalq tərəfdaşlarla işləməyə hazırdır. Bu cür yanaşma beynəlxalq hüquqa, BMT-nin humanitar yardım, münaqişədən sonrakı bərpa və yenidənqurma sahəsindəki fəaliyyətini tənzimləyən müvafiq qətnamə və sənədlərinə əsaslanır və münaqişənin vurduğu yaraların aradan qaldırmasına yönəlmiş qarşılıqlı etimad tədbiri kimi mühüm rol oynayacaq".

# Bölgələrdə qonaqpərvərlik RİTM-lə təşviq olunacaq

## Turizm sektoru pandemiyadan əvvəlki göstəricini 2023-cü ildə bərpa edə bilər

İyulun 1-də Dövlət Turizm Agentliyi (DTA) tərəfindən hazırlanmış, regionlarda turizm startaplarının dəstəklənməsini, eləcə də regional turizmə investisiyaların cəlb edilməsinin təmini məqsədini daşıyan "Regional İnnovativ Turizm Məhsulu" (RİTM) proqramı ictimaiyyətə təqdim olunub.

Təqdimatda RİTM regional sahibkarlıq proqramının turizm sahəsi üzrə investorları və İT mütəxəssislərini cəlb etməklə innovativ startaplara təkan verilməsi, yerli əhalinin sahibkarlıq sahəsində potensialının inkişaf etdirilməsi, eləcə də turizm üzrə fəaliyyət göstərən kiçik və orta sahibkarların dəstəklənməsi istiqamətində fəaliyyət göstərəcəyi vurğulanıb.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev qeyd edib ki, regional turizmin inkişafı məşğulluğun artmasına və turizmyönümlü yeni sahibkarlıq subyektlərinin yaranmasına təkan verəcək əsas amillərdən biridir. Bu, Azərbaycanda regional turizmə həsr olunmuş ilk startap proqramıdır. "Regional İnnovativ Turizm Məhsulu" – RİTM layihəsində kənd turizmi, e-ticarət, kulinariya, ümumilikdə bir çox turizm və qonaqpərvərlik sahələrinə aid olan startaplar təşviq olunacaq: "Ölkəmizin, eləcə də ayrı-ayrı regionlarımızın turizm potensialı çox zəngindir. Hər bir regionumuzun özünəxas cəhətləri var. Bu fərqlilikləri nəzərə alaraq layihə şimalda Quba, Qusar, şimal-qərbdə Şəki, Şamaxı, İsmayıllı, Qəbələ, Zaqatala, Qax, Balakən, Oğuz, cənubda Lənkəran, Lerik, Masallı, qərbdə Gəncə, Mingəçevir, Naftalan, həmçinin Naxçıvan və Bakını əhatə edəcək".



Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov RİTM layihəsinin real və ölçülə bilən nəticələrə yönəldiyini bildirərək layihəyə hərtərəfli dəstək göstərməyə hazır olduqlarını qeyd edib. O, layihədə KOB subyektləri vasitəsilə məşğulluğu təmin etmək istiqamətində olan komponentlərin təqdirəlayiq olduğunu vurğulayıb.

Təqdimatda RİTM proqramına qoşulmaq üçün hazırlanan https://ritm.tourismboard.az/ saytının funksiyaları izah olunub, eləcə də startap proqramına müraciətlə bağlı şərtlər və qaydalar açıqlanıb.

Qeyd edək ki, RİTM proqramına tərəfdaş qismində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və beynəlxalq audit şirkəti olan "PricewaterhouseCoopers" (PwC) tərəfdaşlıq edir.

Pandemiyanın təsirləri nəticəsində dünya turizmində 73 faiz azalma müşahidə edilib. Azərbaycanda isə bu, təxminən 80 faiz olub. Artıq sərhədlər açılıb. İnanırıq ki, ölkəmizə gələcək əcnəbi vətəndaşların sayı çoxalacaq. Bu barədə RİTM proqramının təqdimat mərasimindən sonra təşkil edilən mətbuat konfransında DTA-nın mətbuat katibi Kənan Quluzadə deyib.

O bildirib ki, 2023-cü ildə ümumilikdə turizm sahəsindəki rəqəmlərin təxminən 2019-cu ildəki rəqəmlərə yaxınlaşacağı gözlənilir: "Həmin il Azərbaycana 3 milyon 170 min əcnəbi gəlmişdi, 2020-ci ildə 10 faiz artım gözlənilirdi. Həmin il yanvar-fevralda əvvəlki ilin dövrü ilə müqayisədə 15 faiz artım olmuşdu, lakin daha sonra pandemiya oldu. Ötən il daxili turizm 3 milyona yaxın səfər itirmişdi, bu il bu, bərpa olur, artıq xaricdən gələnlərin sayı da artır".

# Mədəniyyət naziri Misirin ölkəmizdəki səfirini qəbul edib

## Mədəni əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov iyunun 30-da Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahim ilə görüşüb.



Görüşdə Azərbaycan və Misir arasında ikitərəfli münasibətlərin səviyyəsi və müxtəlif sahələr üzrə, o cümlədən mədəniyyət sahəsində əməkdaşlıqdan məmnunluq ifadə edilib, bu münasibətlərin daha da gücləndirilməsi üçün birgə səy göstərilməsinin vacibliyi vurğulanıb.

Nazir Anar Kərimov Azərbaycan ilə Misirin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığına toxunaraq ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda bir-birinə qarşılıqlı dəstək nümayiş etdirdiklərini deyib. Mədəniyyət sahəsində daha çox işlərin görülməsinin vacibliyini qeyd edən Anar Kərimov bu sahədə əlverişli imkanların olduğunu diqqətə çatdırıb.

Qəbul üçün minnətdarlığını bildirən səfir ölkəsinin bütün sahələrdə Azərbaycanla sıx əlaqələr qurmaq niyyətində olduğunu deyərək mədəni əlaqələrin genişləndirilməsi üçün birgə fəaliyyətin səmərəli nəticələr verəcəyinə inamını ifadə edib. Diplomat tərəflər arasında imzalanmış sənədlərin əməkdaşlığın daha da dərinləşməsinə zəmin yaratdığını deyib.

Görüşdə mədəniyyətin müxtəlif sahələrində təcrübə mübadiləsi, iki ölkə arasında mədəni əlaqələrin inkişaf perspektivləri müzakirə olunub. Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Budapeştdə "Nizami Gəncəvi İli"



əvvəli səh. 1-də

Türk Şurasına bütün üzv dövlətlərin nümayəndələrinin bu görüşə təşrif gətirməsini xalqlarımız arasında təmasların daha bir təcəssümü olduğunu söyləyən Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan, Türkiyə, Qırğızıstan, Özbəkistan və Qazaxıstan nümayəndələri macar həmkarları ilə birgə mövcud əlaqələrin intensivləşməsinə böyük əhəmiyyət verirlər. Bu gün Türk Şurası öz strateji baxışını yaratmaq üzərində işləyir. "Türk dünyasının baxışı – 2040" bir yol xəritəsidir, ondan istifadə edərək biz müxtəlif sahələrdə, o cümlədən mədəni sahədə daha dərin əməkdaşlığa doğru irəliləyə bilərik.

Sahibə Qafarova qeyd edib ki, Türk Şurasının qarşıya qoyduğu vacib vəzifələrdən biri də beynəlxalq terrorizm, separatizm, ekstremizm və transsərhəd cinayətlərə qarşı mübarizədə fəaliyyətlərin koordinasiyasıdır. Sədr bu baxımdan tədbir iştirakçılarına xatırladıb ki, Azərbaycan 30 il ərzində Ermənistanın işğalından əziyyət çəkib. Keçən il isə Azərbaycan öz hərbi-siyasi imkanlarından istifadə edərək otuzillik erməni işğalına son qoyub. Spiker təcavüzə və işğala qarşı aparılmış Vətən müharibəsində Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiklərinə görə Türk Şurasına üzv dövlətlərin hökumətlərinə və xalqlarına öz adından və Azərbaycan Respublikasının Milli Məclisi adından səmimi təşəkkürünü ifadə edib.

Milli Məclisin sədri vurğulayıb ki, Türkdilli Ölkələrin Parlament Assambleyası – TÜRKPA xalqlarımız arasındakı mövcud əməkdaşlığın dərinləşməsi üçün son dərəcə vacib platformadır. TÜRKPA-da müşahidəçi statusuna malik olan Macarıstanın bu qurumla inteqrasiyası dərinləşdikcə xalqlarımız bir-birinə daha da yaxınlaşacaq. Türk Şurasına üzv olmaq üçün digər ölkələrdən gələn yeni müraciətlər məmnunluq doğurur, 10-dan çox tərəfdaşımız müşahidəçi statusu almaq niyyətlərini ifadə ediblər.

Tədbirdə Macarıstanda Nizami Gəncəvi haqqında nəşr olunan kitabın tərcüməçisi Laura Pal çıxış edərək dahi Azərbaycan şairinin bəşəri dəyərlərlə zəngin irsindən söz açıb.

Nizami Gəncəvinin xatirəsinə həsr edilmiş bədii proqram nümayiş olunub.

***

Milli Məclisin sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi nümayəndə heyəti Macarıstana rəsmi səfəri çərçivəsində Budapeştə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Əlil uşaqlar üçün Laszlo Batyani İnstitutunun Reabilitasiya Mərkəzini də ziyarət edib.

Mərkəz 1982-ci ildə Macarıstan katolik kilsəsi tərəfindən yaradılıb. Əsas missiyası görmə, hərəkət, ünsiyyət qabiliyyətləri pozulmuş və digər fiziki imkanları məhdud olan uşaqlara yardım göstərməkdən ibarətdir. Heydər Əliyev Fondu xeyriyyə missiyasını davam etdirərək mərkəz üçün yeni korpus tikilməsi təşəbbüsü ilə çıxış edib. 2015-ci ildə tikinti başa çatdırılandan sonra həmin korpus digər binalar kompleksi ilə birləşdirilib. Beşmərtəbəli yataqxana korpusunun ümumi sahəsi 1385,26 kvadratmetrdir.

Mərkəzin kollektivi ilə söhbət edən Sahibə Qafarova deyib ki, Heydər Əliyev Fondunun dəstəyi ilə belə bir korpusun yaradılması iki dost xalq arasında münasibətlərin yüksək səviyyəsini nümayiş etdirir. Parlament nümayəndə heyəti mərkəzin fəaliyyəti ilə tanış olub. Milli Məclisin sədri mərkəzə xatirə hədiyyəsi – Bakının tarixi təsviri olan tablo təqdim edib.

### Bakıda isə "Bela Bartok İli"

Macarıstanda dahi Azərbaycan şairinin irsinə diqqət göstərildiyi kimi, Azərbaycanda da macar mədəni irsinə hörmətlə yanaşılır.

İyulun 2-də Bakıda – Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun ofisində məşhur macar bəstəkarı Bela Bartokun (1881–1945) 140 illik yubileyinə həsr edilmiş "Bela Bartok İli"nin açılış mərasimi keçiriləcək.

Tədbirdə təşkilatın himayəsində yaradılan "Dədə Qorqud" kamera orkestrinin ifasında bəstəkarın əsərlərindən ibarət konsert proqramı təqdim ediləcək. "Dədə Qorqud" kamera orkestri Türk dünyasının zəngin mədəniyyət və incəsənətini, xalq yaradıcılığını, dahi bəstəkarlarının əsərlərini beynəlxalq aləmdə tanıtmaq məqsədilə yaradılıb. Orkestrin bədii rəhbəri və dirijoru Xalq artisti, professor Yalçın Adıgözəlovdur.

# Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunda görüş

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan Bakıya işgüzar səfəri çərçivəsində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunu ziyarət edib.



Fondun prezidenti Günay Əfəndiyeva qonağa Türk dünyasının mədəni irsinin tanıdılması və qorunması istiqamətində həyata keçirilən tədbirlər və layihələr barədə məlumat verib, təşkilatın qurucu üzv ölkəsi olan Türkiyə ilə sıx əməkdaşlıq əlaqələrinin olduğunu vurğulayıb.

Fondun prezidenti bu ilin mart ayında Türk Şurasının videokonfrans formatında keçirilən qeyri-formal zirvə görüşündə Türküstan Bəyannaməsinin qəbul olunduğuna diqqət çəkərək, həmin sənədə əsasən, üzv dövlətlərin müvafiq qurumlarının iştirakı ilə Türk dünyasının ədəbiyyatına, elm və mədəniyyətinin inkişafına böyük töhfə vermiş görkəmli şəxsiyyətlərin yubileylərinin qeyd olunması məsələsinə toxunub.

Qarabağ Zəfərinin bütün Türk dünyasına qürur yaşatdığını deyən Günay Əfəndiyeva bu xüsusda Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsinin önəmini də vurğulayıb.

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan fondda olmasından məmnunluq hissi keçirdiyini qeyd edərək, təşkilat ilə Türkiyə arasında əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib. Fond ilə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi arasında gələcəkdə daha çox birgə layihələrin reallaşdırılmasının vacibliyini qeyd edən Ahmet Misbah Demircan Türkiyənin bundan sonra da təşkilata hər cür dəstək göstərəcəyini bildirib.

Günay Əfəndiyeva qonağa fond tərəfindən nəşr olunan kitablar və Qarabağ xalçası hədiyyə edib.

# Regionlarda Nizami irsinə həsr olunmuş tədbirlər davam edir



Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Heydər Əliyev Mərkəzində Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə kitab və rəsmlərdən ibarət sərgi açılıb.

Sərgidə dahi Nizami Gəncəvinin kitabları, "Xəmsə"yə daxil olan poemalara çəkilmiş miniatürlər, həmçinin Heydər Əliyev Fondu tərəfindən mərkəzə hədiyyə edilən rus, ingilis və fransız dillərində nəşrlər nümayiş etdirilib. Mərkəzin əməkdaşı Rüfanə Həsənova şairin həyat və yaradıcılığından söz açıb. Şəhər Mərkəzi kitabxanasının əməkdaşı Dilbər Yaqubova, gənc aktrisa Türkan Abdullayeva, 10 saylı orta məktəbin ədəbiyyat müəllimi Şəfəq Xəlilova Nizaminin qəzəllərindən nümunələr söyləyiblər. Şəki Dövlət Dram Teatrının gənc aktyorlarının iştirakı ilə hazırlanmış kompozisiya nümayiş olunub.

Xalq şairi Bəxtiyar Vahabzadənin Şəki şəhərindəki ev-muzeyində də Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Şəki rayon Oxud kənd Əhmədiyyə Cəbrayılov adına tam orta məktəbin şagirdlərinin ifasında Nizaminin əsərləri əsasında hazırlanmış səhnəciklər təqdim olunub.

Balakən rayon Tülü kənd Folklor evində "Nizami sözündən incilər" başlığı altında onlayn tədbir keçirilib. Oğuz rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları isə şəhər 3 saylı orta məktəb-liseyin 7-ci sinif şagirdləri ilə birgə tədbir keçiriblər.

Masallı Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı, Masallı, Cəlilabad və Yardımlı rayonlarında fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iştirakı ilə gerçəkləşən virtual "Yaz festivalı"na yekun vurulub. "Nizami Gəncəvi İli" çərçivəsində keçirilən və mayın 12-dən iyunun 12-dək davam edən festival dahi şairin həyat və yaradıcılığını əhatə edən üç janr üzrə keçirilib. Festivalda müvafiq sənət istiqamətləri üzrə I, II və III yerləri tutmuş iştirakçılar yaxın günlərdə Masallı Regional Mədəniyyət İdarəsinin diplomu ilə təltif ediləcək.



Şəmkir Regional Mədəniyyət İdarəsi Şəmkir rayon MKS-nin Oxuculara xidmət şöbəsi açıq havada "Nizami Gəncəvi - 880" adlı kitab sərgisi təşkil edib. Sərgidə şairin əsərləri, haqqında yazılmış kitablar nümayiş olunub.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyi "Yeddi gözəl" başlığı altında "nağıl axşamı" təşkil edib.

# Heydər Əliyev Fondu və Vatikanın birgə layihələrinin önəmi vurğulanıb

Azərbaycanın Vatikandakı səfiri Rəhman Mustafayev Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının və Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının sədri kardinal Canfranko Ravazi, həmçinin Vatikanın xarici işlər üzrə dövlət katibi Pol Riçard Qallagerlə görüşüb.

Görüşlərdə Azərbaycan və Vatikan arasında əməkdaşlıqdan söz açılıb. Heydər Əliyev Fondunun Vatikanda apardığı bərpa işlərindən danışılıb. Fondun həyata keçirdiyi layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Vatikanın xarici işlər üzrə dövlət katibi ilə görüşdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərdəki vəziyyət, həmin torpaqlarda on illər ərzində törədilmiş dağıntılar, ərazilərin minalanması kimi mövzulara da toxunulub. Səfir azad edilmiş ərazilərin minalardan təmizlənməsinə, bərpa və yenidənqurma işlərinə başlanıldığını diqqətə çatdırıb.

Qeyd edək ki, mədəni dəyərlərin qorunması, eləcə də dinlərarası dialoq baxımından Heydər Əliyev Fondu və Vatikanın birgə reallaşdırdığı layihələr böyük əhəmiyyət daşıyır. Mədəni dialoq baxımından dünyaya nümunə olan bu əməkdaşlığın 10 ildən çox tarixi var.

# "Dombranın izi ilə"

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva tanınmış dombra ifaçısı Arslanbek Sultanbekov və "Dombranın izi ilə" tarixi-sənədli filminin rejissoru Mehmet Gün ilə görüşüb.



Arslanbek Sultanbekov sənətinin Azərbaycanda, ümumən Türk dünyasında məşhur olduğunu vurğulayan Qənirə Paşayeva bu görüşdən məmnunluğunu bildirib.

"Qardaş xalqlar arasında ən əsas bağlardan biri məhz mədəniyyət, mədəniyyət xadimləri arasında güclü işbirliyinin olmasından keçir. Sizin kimi məşhur ifaçının bu planda verə biləcəyi töhfələr böyükdür. Çox şadam ki, sizin və qardaş Türkiyənin tanınmış rejissoru Mehmet Günün iştirakı ilə dombra ilə bağlı film hazırlanır. Ümidvaram ki, dombra, saz, digər türk musiqi alətlərinin yaranması, ozan-aşıq sənətinin inkişaf yolları timsalında ortaq mədəni irsimizlə bağlı gözəl bir sənət əsəri ərsəyə gələcək", - deyə o söyləyib.

Komitə sədri hər iki sənətkara xatirə hədiyyələri, o cümlədən Rusiyanın Qaraçay-Çərkəz Respublikasında tikiləcək məscid üçün Türk-İslam motivli rəsm əsəri hədiyyə edib.

Arslanbek Sultanbekov və Mehmet Gün səmimi görüş üçün komitə sədrinə təşəkkür ediblər.

# "Nizami romans" müsabiqəsinin qalibləri mükafatlandırılıb

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı çərçivəsində Təhsil Nazirliyinin dəstəyi ilə keçirdiyi "Nizami romans" respublika müsabiqə-festivalına yekun vurulub.



BMA-dan bildirilib ki, müsabiqəyə 18-35 yaş arasında akademik bəstəkarlıq təhsili alan və ya bəstəkarlıq ixtisası üzrə məzun olan gənclər qatılıb.

Layihənin bədii rəhbəri Xalq artisti, Üzeyir Hacıbəyli adına BMA-nın rektoru, professor Fərhad Bədəlbəylidir. Müsabiqədə gənc bəstəkarların yazdıqları yeni əsərlərin seçilməsi üçün Azərbaycanın tanınmış bəstəkarlarından ibarət münsiflər heyəti təşkil olunub. Münsiflər heyətinin sədri Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadədir.

Qeyd edək ki, müsabiqənin əsas məqsədlərindən biri gənc bəstəkarların düşüncə tərzində və yaradıcılığında Nizami poeziyasının təbliği, dərindən öyrənilməsidir. Bu nəzərə alınaraq müsabiqə üçün yazılmış yeni əsərlərdən ibarət gənc bəstəkarların "Nizami romans" toplusu kitabı da nəşr edilib.

Münsiflər heyətinin səsverməsindən sonra I yerə İlahə Qismət İsrafilova, II yerə Fərid Fətullayev, III yerə Ülkər Aşurbəyova layiq görülüblər. Həmçinin Sara Amirian, Nigar Süleymanova və Elvin Quliyev müsabiqənin diplomları ilə təltif olunublar. Digər iştirakçılara fəxri fərmanlar təqdim edilib.

Qeyd edək ki, "Nizami Gəncəvi İli" çərçivəsində keçirilən müsabiqə eyni zamanda Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illik yubileyinə həsr olunub.

# Azərbaycan Yazıçılar Birliyində yeni katiblər

Azərbaycan Yazıçılar Birliyində (AYB) yeni təyinatlar olub. Bu barədə AYB-nin mətbuat katibi Xəyal Rza məlumat verib.

Rəşad Məcid AYB sədrinin müavini, Elçin Hüseynbəyli və Səlim Babullaoğlu AYB-nin katibləri təyin olunub.

Bundan öncə Rəşad Məcid AYB-də gənclər üzrə katib, Elçin Hüseynbəyli AYB sədrinin müşaviri, Salim Babullaoğlu isə Yazıçılar Birliyinin Bədii tərcümə və ədəbi əlaqələr mərkəzinin sədri olub. R.Məcid AYB-də gənclər üzrə katib vəzifəsində də qalacaq.

Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının iclasında da bir sıra məsələlər müzakirə edilib. AYB-nin sədri, Xalq yazıçısı Anar da iclasda iştirak edib.

İclasda ədəbi festivalların təşkili, gənc yazarların ədəbi mətbu orqanların redaksiya heyətlərinə üzv qəbul edilməsi, ədəbi telelayihələr, yay məktəblərinin təşkili, dövlət qurumları, habelə özəl təşkilatlarla əməkdaşlıq, regionlarda və paytaxtda oxucularla görüşlərin keçirilməsi, gənc yazarların əsərlərinin çapı və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Xalq yazıçısı Anar gənclərə tövsiyələrini verib və onlara uğurlar arzulayıb.

№49 (1826)
2 iyul 2021
www.medeniyyet.az

# "Karabakh. Center" layihəsi otuzillik işğalın nəticələrini dünyaya çatdıracaq

## Qarabağ Dirçəliş Fondunun hazırladığı internet resursu təqdim olunub

əvvəli səh. 1-də

"Münaqişə" və "Cinayət" bölmələrində Ermənistan-Azərbaycan münaqişəsinin səbəb və nəticələri ilə bağlı peşəkar tədqiqatçı və jurnalistlər tərəfindən hazırlanmış eksklüziv analitik materiallar və tarixi sənədlər təqdim olunur. İnternet resursu üzərində iş davam etdiriləcək, veb-sayt mütəmadi olaraq əlavə edilən yeni fotomateriallarla və analitik məqalələrlə zənginləşdiriləcək, dilbər guşəmiz Qarabağı dirçəldəcək bərpa işlərinə həsr olunmuş materiallara xüsusi yer veriləcək.

Bu internet resursu həm Cənubi Qafqaz mövzusu ilə maraqlanan geniş auditoriyanın, həm də burada təkcə maraqlı tədqiqat işləri deyil, eləcə də "Kitabxana" bölməsində mövcud olan çoxsaylı orijinal mənbələr (arxiv sənədləri, kitablar, hesabatlar və s.) peşəkar ekspertlərin diqqətini cəlb edəcək.

Tədbirdə Qarabağda törədilən dağıntıların və vurulan zərərin miqyasından bəhs edən "Qarabağda Urbisid" adlı video da nümayiş olunub.

İqtisadiyyat naziri, Qarabağ Dirçəliş Fondu Müşahidə Şurasının sədri Mikayıl Cabbarov deyib ki, Azərbaycan Ordusunun şücaəti nəticəsində işğaldan azad edilmiş Qarabağın dirçəlişi genişmiqyaslı prosesdir: "Çünki biz yalnız dağıdılmış maddi irsimizin bərpası kimi hədəflərlə məhdudlaşa bilmərik və daimi, dayanıqlı inkişafı hədəfləməliyik".





Tarixdə Stalinqrad, Sarayevo, Xirosima hadisələri kimi faciələri xatırladan M.Cabbarov deyib: "Qarabağdakı hadisələr şüurlu şəkildə, onilliklər ərzində həyata keçirilən dağıntı prosesidir. İşğal zamanı təkcə tarixi abidələrimiz, infrastruktur obyektlərimiz, şəhər və kəndlərimiz dağıdılmayıb, regionun gözəl təbiətinə də çox böyük zərər vurulub. İnternet resursunda bu barədə də məlumatlar yer alır. Bu dağıntılar bizim hansı düşmənlə üz-üzə olduğumuzu göstərir".

Azərbaycan Prezidentinin rəhbərliyi ilə Qarabağda bərpa və rekonstruksiya işlərinin sürətlə davam etdiyini diqqətə çatdıran Qarabağ Dirçəliş Fondu Müşahidə Şurasının sədri əmin olduğunu bildirib ki, tezliklə biz bu torpaqların çiçəklənməsinin şahidi olacağıq. "Karabakh. Center" internet resursu Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılıb. Bu internet resursunun müxtəlif dillərdə təqdimatı nəzərdə tutulur. Bu, təkcə onlayn versiya ilə məhdudlaşmamalıdır. Qarabağda baş verən dağıntıların miqyası dünyaya çatdırılmalıdır. Dağıdılmış abidələr bərpa olunacaq. Qarabağ Dirçəliş Fondu Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilən bu layihələrə dəstək verməkdən qürur duyur", - deyə Mikayıl Cabbarov vurğulayıb.

Qarabağ Dirçəliş Fondu Müşahidə Şurasının üzvü, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev 30 ildən çox davam etmiş işğalın nəticələri və hazırda aparılan bərpa işləri barədə dünya ictimaiyyətinə dolğun məlumatın çatdırılmasında müasir informasiya texnologiyalarının rolundan danışıb: "Ermənistanın törətdiyi ekoloji terror nəticəsində ətraf mühitə ciddi zərər vurulub, təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi ekoloji tarazlığın pozulmasına gətirib çıxarıb. "Karabakh. Center" internet platforması bu həqiqətlərin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasında, təbiətə belə amansız münasibətin ifşa edilməsində böyük rol oynayacaq. Eyni zamanda qarşımızda təbiət ərazilərinin bərpa edilməsi, onların işğaldan əvvəlki vəziyyətinə qaytarılması kimi böyük məsuliyyət dayanır".

Nazir qeyd edib ki, Qarabağ bölgəsi istər təbii sərvətləri, istərsə də biomüxtəlifliyi baxımından çox zəngindir. İşğaldan azad edilmiş ərazilərimizdə bioloji müxtəlifliyin bərpası, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsi istiqamətində işlər aparılacaq. Hazırda "Qırmızı Kitab"ın 3-cü nəşrinin hazırlanmasına başlanılıb. Qarabağın fauna və flora növlərinin hazırkı statusunun qiymətləndirilməsi məqsədilə burada elmi tədqiqat işləri aparılacaq. Bu proseslərin platformada geniş işıqlandırılması məqsədəuyğun olardı.

Qeyd olunub ki, Azərbaycanın transsərhəd çayları Ermənistan tərəfindən davamlı çirklənməyə məruz qalıb və çirklənmələr bu gün də davam edir. Xüsusilə də Oxçuçayın hövzəsi "ölü zona"ya çevrilib. Qarabağın təbiətinə, ekologiyasına vurulan bu və digər zərər barədə məlumatların dünya ictimaiyyətinə çatdırılmasında, eləcə də beynəlxalq səlahiyyətli qurumlar tərəfindən Ermənistana təsir göstərilməsində "Karabakh. Center" resursunun imkanlarından geniş istifadə edilə bilər.

Milli Məclisin deputatı, Qarabağ Dirçəliş Fondu Müşahidə Şurasının üzvü Fatma Yıldırım bildirib ki, "Karabakh. Center" internet resursu vasitəsilə Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı torpaqlarımızda törədilən vandalizm aktları barədə məlumatları dünya ictimaiyyətinə çatdırmaq mümkün olacaq. Portalın təbliği işinə vətəndaş olaraq hər birimiz, bütün cəmiyyətimiz öz töhfəsini verməlidir.

Sonra Qarabağ Dirçəliş Fondu İdarə Heyətinin sədri Rəhman Hacıyev layihənin ərsəyə gəlməsi barədə danışıb, internet resursunun videotəqdimatı olub.

# Tovuzda Qala düzü abidəsində ilkin tədqiqatlar aparılıb

## XVIII əsrə aid iki otaqdan ibarət evin qalıqları aşkarlanıb

Ölkə ərazisində tarixi abidələrin qeydiyyatı ilə bağlı görülən işlərin təkmilləşdirilməsi məqsədilə vacib sayılan bir sıra ərazilərdə arxeoloji tədqiqat işləri həyata keçirilir. Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin müraciəti əsasında AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Tovuz bölgəsində çalışan arxeoloji ekspedisiyası iyun ayında rayonun Vahidli kəndi ərazisində yerləşən Son Orta əsrlər dövrünə aid məscid və türbə kompleksinin (inv. 5201) ətraf ərazilərində ilkin arxeoloji qazıntı işləri aparıb.



Arxeoloji tədqiqat işləri hündür təpələr olan "Qala düzü" adı ilə tanınan ərazidə həyata keçirilib. Qazıntı işləri zamanı ərazidə Orta əsrlər dövrünə aid yaşayış yerinin mövcudluğunu sübut edən mədəni təbəqə – XVIII əsrə aid iki otaqdan ibarət evin qalıqları aşkar edilib. Burada məscid və türbə kompleksinin və əsasən karvan yolları üçün nəzərdə tutulmuş körpünün olması vaxtilə ərazidə zəngin yaşayış yerinin mövcudluğunu təsdiqləyib.

Ümumilikdə 2 hektardan çox ərazini əhatə edən abidələr Son Orta əsrlər dövrünə aid qədim yaşayış yerinin kompleks şəkildə qorunmasını və tədqiqinin vacibliyini ön plana çəkir. Aparılmış qazıntılar nəticəsində Qala düzü ərazisində aşkar olunmuş yaşayış yerinin mühafizə zonasının sərhədləri müəyyən edilib.

Tovuz şəhərinin cənub-qərb istiqamətində yerləşən və dövlət tərəfindən qorunan XVII əsrə aid məscid və türbə kompleksi ötən əsrin 80-ci illərində tədqiq edilib. Axınca çayının ətrafında yerləşən digər Orta əsrlər memarlıq nümunəsi XV əsrə aid Aran memarlıq üslubunda inşa olunmuş Sultan körpüsüdür. Məscid və qəbiristanlığın və Sultan körpüsünün arasında olan ərazinin böyük bir hissəsi Qala düzü adlanır.

# F.Köçərli haqqında elektron məlumat bazası təkmilləşdirilib

Respublika Uşaq Kitabxanası görkəmli ədəbiyyatşünas alim, tanınmış maarifpərvər, ictimai xadim, publisist-yazıçı, tənqidçi və tərcüməçi Firidun bəy Köçərliyə (1863-1920) həsr edilmiş elektron məlumat bazasını təkmilləşdirilmiş variantda istifadəçilərə təqdim edib.

Qeyd edək ki, elektron məlumat bazası ilk dəfə 2018-ci ildə F.Köçərlinin anadan olmasının 155 illiyi münasibətilə hazırlanmışdı.

Yenilənmiş bazaya ədibin həyat və yaradıcılığını əhatə edən materialların tam variantı daxil edilib. 11 bölmə, yarımbölmələrdən ibarət olan və 1911-ci ildən 2021-ci ilin birinci yarısına qədərki dövrü əhatə edən elektron məlumat bazasında ədəbiyyatşünas alimin həyat və yaradıcılığının əsas tarixləri, müdrik deyimləri, görkəmli şəxsiyyətlərin onun haqqında söylədiyi fikirlər, əsərləri, haqqında yazılan kitablar, məqalələr və dissertasiyalar və s. yer alıb.

Elektron məlumat bazasına tarix üzrə fəlsəfə doktoru Məmməd Mirzəliyev, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərli, Respublika Uşaq Kitabxanasının direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova, şairə Mina Rəşid və tədqiqatçı Pərixanım Mikayılqızının məqalə və kitabları – ümumilikdə, 35 adda materialın tam mətnləri əlavə edilib. Hazırda bazada 320 kitab və məqalə yer alır.

## Bölgələrdən xəbərlər



Masallı Regional Mədəniyyət İdarəsi R.Tağıyev adına Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyində uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə rayonun bir çox ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivləri üçün yay ekskursiyası təşkil edilib.

Sumqayıt Regional Mədəniyyət İdarəsi Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin fortepiano ixtisası üzrə şagirdi Rəna Quluzadə Qazaxıstanda onlayn formatda keçirilən beynəlxalq müsabiqədə 1-ci yerə layiq görülüb.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin şəhər, qəsəbə və kənd kitabxana filiallarında çalışan kitabxana əməkdaşlarının iştirakı ilə onlayn seminar-müşavirə keçirilib. MKS-nin direktoru Saməddin Nəsirov iyun ayı ərzində MKS-nin əhatə etdiyi kitabxanalarda görülmüş işlər və qarşıda duran vəzifələr haqqında söz açıb. Quba rayon MKS-nin Mərkəzi kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Zaur Cəfərov adına şəhər 3 saylı tam orta məktəbdə "Yay məktəbi"ndə səyyar kitabxana xidməti" adlı sərgi təşkil olunub. Sərgidə Azərbaycan və rus dillərində 100-ə yaxın ədəbiyyat nümayiş etdirilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsində Azərbaycan Yazıçılar Birliyinin üzvü, hüquqşünas-yazıçı Əlisəfa Azayevlə görüş keçirilib. İdarənin rəisi Faiq Xudanlı yazıçının yaradıcılığı haqqında məlumat verib. Daha sonra görüş iştirakçıları müəllifin əsərləri haqqında fikirlərini bölüşüblər.

# Müxtəlif səpkili tədbirlər

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Narkomaniyaya qarşı mübarizə sağlam həyata təminatdır" mövzusunda onlayn tədbir təşkil olunub. Ağstafa rayon Qaçaq Kərəm kənd tam orta məktəbinin 2-ci sinif şagirdləri Ağstafa Rayon Tarix-Diyarşünaslıq Muzeyində ekskursiyada olublar. Qazax Dövlət Rəsm Qalereyasında Azərbaycan milli mətbuatının banisi, görkəmli ictimai xadim, böyük maarifpərvər Həsən bəy Zərdabinin (1842-1907) anadan olmasının 179-cu ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Rəsul Mirzəliyev adına Qazax rayon Alpoud kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak ediblər.



Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Bizim çempion" layihəsi çərçivəsində görüş keçirilib.

Sabirabad Regional Mədəniyyət İdarəsinin rəisi Fərid Qurbanzadə Sabirabad rayonunda fəaliyyət göstərən kənd mədəniyyət müəssisələrinin rəhbərləri ilə görüş keçirib. İdarənin rəisi regionların mədəni inkişafı ilə bağlı görülən işlərdən, mədəniyyət sahəsində dövlət siyasətinin yeni istiqamətlərindən söz açıb, həmçinin kənd mədəniyyət müəssisələrinin fəaliyyətindən, mövcud çatışmazlıqlardan, onların həlli yollarından danışıb.



Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon MKS-nin qarşısında "açıq kitabxana" keçirilib. Sərgidə müxtəlif mövzularda kitablar nümayiş etdirilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Z.Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbində hesabat konserti keçirilib. Konsertdə məktəbin "Fantaziya" və "Turan" skripkaçalanlar, sazçalanlar ansambllarının ifasında xalq mahnıları, Azərbaycan və xarici bəstəkarların əsərləri səsləndirilib. Gəncə şəhər MKS-nin Mərkəzi kitabxanasının oxu zalı Xalq şairi Nigar Rəfibəylinin (1913-1981) anım günü (9 iyul) münasibətilə "Ayrılıqdan betər dünyada nə var" adlı onlayn ədəbi-bədii gecə keçirib. Samux rayon Mədəniyyət Mərkəzində "İnsan hüquqları və insan haqları" adlı dəyirmi masa təşkil edilib.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin fortepiano ixtisası üzrə IV sinif şagirdi Nübar Əbdürəhmanova İtaliyada keçirilən "Gələcəyin ulduzları" beynəlxalq onlayn müsabiqəsində öz yaş qrupu üzrə I dərəcəli laureat adını qazanıb. Qax rayon İlisu kənd Diyarşünaslıq evində "Narkomaniyaya yox deyək" mövzusunda tədbir keçirilib. Səməd Vurğun adına Qax rayon Mədəniyyət Mərkəzində "Dünyanı heyran qoyan muğamlarımız" adlı dəyirmi masa keçirilib. Tədbirdə Xalq şairi Bəxtiyar Vahabzadənin "Muğam" poemasından və muğamlarımızdan hissələr səsləndirilib.

# Vətənin qəhrəmanları unudulmur




Xaçmaz Regional Mədəniyyət İdarəsi Qusar şəhər Uşaq incəsənət məktəbində "Rəşadətli Ordumuz" adlı tədbir keçirilib. Tədbirdə Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Hüseynov, məktəbin kollektivi və Qusar rayonunun mədəniyyət işçiləri iştirak edib. Quba rayon MKS-nin Aşağı Xuc kənd kitabxanasının əməkdaşları Vətən müharibəsinin şəhid giziri Ürfan Məmmədovun doğum günündə ailəsini və məzarını ziyarət ediblər. Kitabxananın fəal oxucusu Ülkər Zalova "Şəhidim" şeirini söyləyib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Köçəsgər kənd mədəniyyət müəssisələrinin əməkdaşları Tovuz döyüşlərində (2020, iyul) şəhidlik zirvəsinə ucalan Yaşar Babayevin doğum günündə məzarını ziyarət ediblər.

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon Mədəniyyət Mərkəzinin filialları Silahlı Qüvvələr Günü münasibətilə müxtəlif tədbirlər keçirib, videoçarxlar hazırlayıblar.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Salyan rayon Heydər Əliyev Mərkəzinin kollektivi Vətən müharibəsinin şəhid mayoru Müseyib Zeynalovun xatirəsinə tikilmiş abidənin açılış mərasimində iştirak edib.






Şəki Regional Mədəniyyət İdarəsi Balakən rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı, Vətən müharibəsi şəhidlərinin ailələri, qazilərin iştirakı ilə "Vətənin Zəfər tarixi" adlı musiqili ədəbi kompozisiya təqdim edilib.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin Mərkəzi kitabxanasının Uşaq şöbəsi Azərbaycanın Milli Qəhrəmanı Yavər Əliyevin (1956-1992) anadan olmasının 65 illiyi ilə əlaqədar "Vətən üçün ölənlər əbədi, ölməz olur" başlıqlı onlayn söhbət keçirib. MKS-nin Mərkəzi kitabxananın oxu zalı "Vətən sevgisi pak, vətənpərvərlik isə uca mənəvi rütbədir" başlıqlı onlayn görüş təşkil edib. MKS-nin 2 saylı kitabxana filialı isə Vətən müharibəsi şəhidi Səxavət Həsənovun ailəsi ilə onlayn görüş keçirib.

Hazırladı: N.MƏMMƏDLİ

# Akademik Musiqili Teatr mövsümə yekun vurub

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında 111-ci mövsümə yekun vurulub. İl ərzində yaradıcılıq uğurları ilə seçilən əməkdaşların bir qrupu mükafatlandırılıb. Tədbir teatrın ənənəvi mükafatlandırma mərasimlərindən fərqli olaraq onlayn rejimdə - "Zoom" proqramı üzərindən həyata keçirilib.




Əvvəlcə Vətən müharibəsində canlarını fəda etmiş qəhrəmanlarımızın, o cümlədən teatrın işıqçısı, şəhid Əliağa Məmmədovun əziz xatirəsi ehtiramla yad olunub.

Tədbirin aparıcıları – Əməkdar artist Əkbər Əlizadə və aktrisa Mehriban Zaliyeva teatr kollektivinin Vətən müharibəsi zamanı fəaliyyətindən, yaradıcılıq əzmindən söz açıblar.

Akademik Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev bu tədbirin ilk dəfə belə formatda təqdim olunmasına diqqət çəkərək ötən bir il ərzində yaradıcı insanların qarşılaşdığı çətinliklər fonunda qazanılan uğurlardan danışıb: "Dünyanı cənginə alan pandemiya teatrların düzəninə olduqca mənfi təsir edib. Amma kollektivimiz karantin dönəmində, eyni zamanda 44 günlük Vətən müharibəsi günlərində əzmlə çalışdı və fəaliyyətimizlə Ali Baş Komandanın ətrafında həmrəyliyimizi bir daha göstərdik. Bu tarixi dönəmdə bir daha əmin olduq ki, birliyimizlə daha çox nailiyyətlər əldə edə bilərik. Bu tədbirdə də əsas məqsədimiz teatrda çalışan gənclərin gələcək fəaliyyətlərinə stimul verməkdir".

Mərasimdə məlumat verilib ki, teatrın əməkdaşlarından quruluşçu rejissorlar – Əməkdar incəsənət xadimi Əsgər Əsgərov və Samir Qulamov, aktyorlar – Emil Heydərov, Nicat Əli, Zaur Əliyev, bədii quruluş hissə müdiri Qabil Gözəlov, quruluşçu operator və montajçı Hikmət Şahverdizadə, mətbuat katibi Fəridə Aslanova, orkestr artisti Firuzə Nəcəfli mükafata layiq görülüblər. Sənətşünaslıq üzrə fəlsəfə doktoru Rəcəb Məmmədov və "Səssiz dünya" İşarət Dilində Danışan Əlillərə və İdmançılara Dəstək İctimai Birliyinin sədri Aida Səfərova da mükafatlandırılıb.

Xalq artisti Hüseynağa Sadıqovun ailəsinin təsis etdiyi "Büllur alma" mükafatı da təqdim olunub. "Mövsümün ən işgüzar rejissoru" Samir Qulamov və "Vətən müharibəsində göstərdiyi şücaətə görə" balet artisti Murad Ağayev "Büllur alma"nın sahibi olublar.

Sonda teatrın gənc solistləri Hidayət Əliyev və Nigar Qarayeva vətənpərvərlik mövzusunda mahnılar ifa ediblər.

## "Günay" teatr-studiyasının uğurları

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Bakı Uşaq və Gənclər Teatrının nəzdində fəaliyyət göstərən rusdilli uşaqlardan ibarət "Günay" teatr-studiyası sənət ocaqlarının fəaliyyətinin məhdudlaşdığı karantin rejimi şəraitində də uğurlu yaradıcılıq işləri həyata keçirib.

Studiya "İnstagram" və "Facebook" sosial səhifələri üzərindən konsertlər təqdim edib. Belə tədbirlərdən biri də torpaqlarımızın azad edilməsinə həsr olunmuş "Zəfər" onlayn konserti olub. Beynəlxalq onlayn müsabiqələrdə uğurla iştirak edən kollektiv ümumilikdə 18 müsabiqədən yüzə yaxın laureat diplomu qazanıb. Studiya Rusiya səfirliyinin keçirdiyi tədbirlərdə, yarışmalarda da fəal iştirak edərək mükafatlarla təltif olunub.

"Günay" teatr-studiyası Niyazinin Mənzil-Muzeyində 1 iyun – Beynəlxalq Uşaqların Müdafiəsi Gününə həsr olunmuş, 22 iyun tarixində isə Səməd Vurğunun Ev-Muzeyində Nizami Gəncəviyə həsr olunmuş ədəbi-musiqili kompozisiya ilə çıxış edib. Studiyanın bədii rəhbəri Larisa Tarusovanın quruluşunda "Nizami" adlı tamaşa hazırlanıb.

# Bu dünyada bir Ramiq Muxtar vardı...

Könüllərin ilhama gəldiyi, təbiətin oyandığı, aləmə sevgi, yaşam eşqi pıçıldayan yaz gecəsində bu dünyadan bir şair köçdü. O şair ki, "həyatda ən böyük qazancım dostlarımdır" deyirdi. O şair Ramiq Muxtar idi.

*Bir əqidəm, bir amalım,*
*Bir işıqlı yolum vardır.*
*O yol böyük Vətən dərdim,*
*Azadlığın şüarıdı...*

- misralarını yazan şairi insanlara sevdirən əsas cəhətlərdən biri də məhz xalq həyatına dərindən bələd olması, onun arzu və istəklərini öz əsərlərində dolğun, səmimi əks etdirməsi idi.



Bu ilin aprel ayında 79 yaşında dünyaya əlvida deyən tanınmış şair-dramaturq, Prezident təqaüdçüsü Ramiq Muxtar oğlu Nağıyev 1942-ci ildə Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 11 yaşından bədii yaradıcılığa başlayıb, şeirləri dövri mətbuatda mütəmadi dərc olunub. 1980-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan müəllifin sözlərinə 120-dən artıq mahnı bəstələnib. Hərbi-vətənpərvərlik mövzusunda qələmə aldığı şeirlərə bəstələnmiş mahnılar müxtəlif müsabiqələrdə səkkiz dəfə birinci mükafata layiq görülüb.

Ulu öndər Heydər Əliyevin tapşırığı ilə Ramiq Muxtar "Dünya azərbaycanlılarının birlik nəğməsi"ni bəstəkar Nəriman Məmmədovla birlikdə yazıblar. 2001-ci il noyabrın 9-10-da Dünya Azərbaycanlılarının I Qurultayının açılışı günü mahnının sözləri notu ilə birlikdə "Respublika" qəzetində çap olunub və qonaqlara paylanılıb.

*...Qürbət eldə, qərib yurdda yaşasaq da,*
*Yerin altda, göyün üstə dolaşsaq da,*
*Gözlərindən çox uzaqda biz olsaq da,*
*Ürəyimiz səninlədi bizim hər an,*
*Ey müstəqil Vətənimiz,*
*Azərbaycan, Azərbaycan!*

Ramiq Muxtar eyni zamanda Ağdamın "Qarabağ" futbol komandasının himninin də mətn müəllifidir.

Şairin sözlərinə Xalq artistləri Ramiz Mustafayev, Nəriman Əzimov, Sərdar Fərəcov musiqilər bəstələyiblər. Əllidən çox ifaçı şairin sözlərinə yazılmış mahnıları ifa edib. Dramaturq kimi də fəaliyyət göstərən müəllifin "Əgər sevirsənsə", "Şəhərli kürəkən", "Üfüqlər qızaranda", "Əlvida, köhnə dünya", "Müdirin aqibəti", "Doğma səmanın ulduzları" və digər pyesləri Bakıda, habelə İrəvan, Naxçıvan, Qazax, Ağdam teatrlarında tamaşaya qoyulub.

Müəllif gürcü-Azərbaycan xalqlarının dostluğundan bəhs edən "Şəhərli kürəkən" pyesinə görə Gürcüstanın "Şərəf" ordeninə layiq görülüb. Rəsul Rza adına beynəlxalq mükafatın laureatı olan şair Prezidentin fərdi təqaüdçüsü idi.

Mərhum şairi rejissor Tahir Tahiroviçin xatirələri işığında yad etdik. Tahir müəllim Ramiq Muxtarı rejissor, şair, dramaturq, futbol mütəxəssisi və nəhayət, gözəl insan kimi xarakterizə edir: "O, bunlara görə vaxtından tez qocalmışdı. Çünki ömrü boyu adlarını sadaladığım sahələrə ürəkdən yanaşırdı. Ən əsası dostlarının hər anda köməyinə gələrdi. Təsadüfi deyil ki, müəllifin yazdığı son şeirdən də bunu görmək mümkündür:

*Sevdim insanları canımdan artıq,*
*Hər uğur, hər sevinc məni ucaltdı.*
*Bir mərdi bir namərd dara çəkəndə,*
*Dərd mənə güc gəldi, məni qocaltdı...".*

Rejissor deyir ki, Ramiq Muxtar M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda (indiki ADMİU) təhsil alıb. Sonra Naxçıvanda "Şərq qapısı" qəzetində ədəbi işçi, Şahbuz rayonundakı Uşaq musiqi məktəbinin direktoru, Naxçıvan MSSR Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri, "Araz" futbol klubunun rəhbəri, 1984-1986-cı illərdə Naxçıvan Dövlət Filarmoniyasının direktoru, paytaxtın Nəsimi rayonundakı şahmat məktəbinin müdiri və bir çox vəzifələrdə çalışıb. Son olaraq Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin İxtisaslaşdırma və İxtisasartırma İnstitutunun direktoru olmuşdu. O, eyni zamanda dama üzrə SSRİ idman ustası idi.

Həmsöhbətim bildirir ki, nədənsə hamı Ramiq müəllimi özünə yaxın sanardı. El adamı idi. Sadə, səmimi və təvazökar. Heç kimin xətrinə dəyməyən lirik xasiyyəti vardı. O, həyatını da şeirləri kimi gerçək yaşayıb: "Bu gün yəqin ki, şairin ruhu rahatdır. O, Qarabağın azad olunduğunu görüb bu dünyadan köçdü. Şair vaxtilə "Əyəmmədi qamətini qan püskürən yağı düşmən, And yerimiz tək sən oldun, Azərbaycan - Ana Vətən!" - deyə yazmışdı. Səmimiyyət şairinin xatirəsi yaxşılıq etdiyi insanların, oxucu və tamaşaçılarının, eləcə də sədaqətli dostlarının qəlbində əbədi yaşayacaq".

**L.AZƏRİ**

## Xalça Muzeyində "Sağlam həyat, sağlam yaşa"

Azərbaycan Milli Xalça Muzeyində uşaqlar arasında sağlam həyat tərzinin təbliği, idmana marağın artırılması, onların bu istiqamətdə maarifləndirilməsi məqsədilə "Sağlam həyat, sağlam yaşa" layihəsi çərçivəsində tədbir keçirilib.



Muzeydən bildirilib ki, tədbirdə "Focus Group" – psixoloji xidmət və konsaltinq şirkətinin psixoloqu Nərgiz Zeynalzadə uşaqlara yoqa, art terapiya təlimləri keçib, onlarla sağlam həyat vərdişlərinin formalaşdırılması mövzusunda söhbət edib. Açıq havada bir neçə saat davam edən təlimdə uşaqlar sağlam həyat tərzinin insan sağlamlığına təsiri barədə maraqlı məlumatlara yiyələnməklə yanaşı, həm də əyləniblər.

Qeyd edək ki, Milli Xalça Muzeyinn Uşaq şöbəsi yay tətili müddətində uşaqlar üçün bu cür maraqlı tədbirləri karantin qaydalarına uyğun şəkildə davam etdirəcək.

## Uşaq musiqi məktəbləri yetirmələrinin nailiyyətləri

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Əhməd Bakıxanov adına 6 nömrəli Uşaq musiqi məktəbinin yetirmələri 2020-2021-ci tədris ilində beynəlxalq onlayn müsabiqələrdə uğur qazanıb.



İdarədən bildirilib ki, məktəbin xalq çalğı alətləri şöbəsinin qarmon ixtisası üzrə şagirdləri Elnur Əliverdiyev, Eldar Hüseynov və Nuray Adbullayeva Qazaxıstanda keçirilmiş "Astana vision contest" beynəlxalq vokal-instrumental musiqi müsabiqəsində I dərəcəli laureat adına layiq görülüb. Qarmon ixtisası üzrə şagird Murad Abdullayev Moskvada keçirilən "Muzıkalnıy rassvet" instrumental ifaçılıq üzrə beynəlxalq müsabiqədə Qran-pri mükafatı alıb. ABŞ-da keçirilmiş "American edition contest" müsabiqəsində Xədicə Balabəyova III dərəcəli diplomla təltif olunub.

Fortepiano şöbəsində təhsil alan Amirə Əliyeva Budapeştdə (Macarıstan) keçirilən "Best of the Best" beynəlxalq müsabiqəsində I yeri, II sinif şagirdi İbrahim Əhmədov isə II yeri tutub. Fransa paytaxtında təşkil olunan "Le Ciel De Paris" III beynəlxalq festival-müsabiqəsində Duyğu Ziyalı II yerə çıxıb. O, həmçinin Sara Teyyublu ilə birlikdə Kopenhagendə (Danimarka) keçirilən "Pease and Friendship" beynəlxalq müsabiqəsində I və II yerlərə layiq görülüb.

Aydan Hüseynova Madriddə keçirilən "Spain Star Production" beynəlxalq müsabiqəsində, Nuray Manafova isə İtaliya paytaxtında "Star of the Rome" yarışmasında II yeri qazanıb. Simli alətlər şöbəsində təhsil alan Neylor Çarlz Emin İspaniyada keçirilən "World Art Games" müsabiqəsində II yerə, Leyla Əfəndiyeva və Rada Ramazanova II yerə, Fərid Ziyalı və Mail Manafov I yerə layiq görülüblər.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi 33 nömrəli Uşaq musiqi məktəbinin fortepiano ixtisası üzrə şagirdi Xədicə Vəliyeva Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən "El Gran Astor" I beynəlxalq instrumental musiqi müsabiqəsində uğurla iştirak edib. Xədicə fortepiano nominasiyası üzrə 11-13 yaş kateqoriyasında I dərəcəli laureat adına layiq görülüb. Gənc istedadın müəllimi Aidə Şeyxovaya təşəkkürnamə təqdim olunub.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi 34 nömrəli Uşaq musiqi məktəbinin fortepiano şöbəsinin şagirdləri Aytən Şirinova və Malik Qədimzadə Moskva şəhərində keçirilən "Art world 2021" beynəlxalq yaradıcılıq onlayn müsabiqəsində "ansambl" nominasiyası üzrə iştirak ediblər.

Şagirdlər uğurlu çıxışlarına görə münsiflər heyəti tərəfindən birinci dərəcəli diploma layiq görülüblər. Onları müsabiqəyə hazırlayan müəllimlər A.Ələkbərova və Q.Rüstəmova sertifikatla təltif olunublar.

## "Zəfər tarixindən şanlı səhifələr"

### Ümumrespublika əlyazma kitab müsabiqəsi

F.Köçərli adına Respublika Uşaq Kitabxanası, Vətən müharibəsində Qələbəmizin əbədiləşdirilməsinin tarixi əhəmiyyətini nəzərə alaraq, 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "Zəfər tarixində şanlı səhifələr" adlı 12-17 yaşlı yeniyetmələr arasında ümumrespublika əlyazma kitab müsabiqəsi elan edib.



Müsabiqənin təşkilində əsas məqsəd yeniyetmələrdə hərbi vətənpərvərlik ruhunu yüksəltmək, gənclərə milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hissləri aşılamaq, Azərbaycan əsgərinin döyüş rəşadətini və şəhidlərimizin xatirəsini əbədiləşdirməklə onlar haqda məlumat bazası formalaşdırmaq işinə töhfə verməkdir. Müsabiqə həmçinin yeniyetmə yazarları yaşıdları arasında tanıtmaq, onları ruhlandırmaq, qələmə aldıqları hekayələri kitab halına salmaq baxımından əhəmiyyətlidir.

Yeniyetmə yazarlar Vətən müharibəsi iştirakçısı olmuş qəhrəmanların (şəhid və qazilərin) döyüş yolu haqqında faktları nəzərə almalıdır.

"Zəfər tarixindən şanlı səhifələr" adlı ümumrespublika əlyazma kitab müsabiqəsi 2021-ci il 1 iyul – 1 oktyabr tarixlərində keçiriləcək.

Müsabiqənin şərtləri:

- Birinci və İkinci Qarabağ müharibələrində iştirak edən qəhrəmanlarımız haqqında hekayələr üç hissədən (giriş, əsas hissə, nəticə) ibarət olmalı;
- Qəhrəmanlar haqqında tarix və şəkillər düzgün seçilməli;
- Yazılmış hekayədə fikirlər aydın və səlis ifadə edilməli;
- Kitabın həcmi 15 səhifədən çox olmamalıdır.

Müsabiqədə iştirak etmək istəyənlər 1 oktyabr 2021-ci il tarixinə qədər əlyazma kitabları kitabxananın Kütləvi işlər şöbəsinə təhvil verməlidir.

İştirakçılar hekayə ilə yanaşı özləri haqqında məlumatı (ad, soyad, ata adı, oxuduğu təhsil müəssisəsi, sinif, telefon nömrəsi, e-mail və s.) təqdim etməlidir.

Müsabiqənin şərtlərinə əsasən, 4 noyabr 2021-ci il tarixində əlyazma kitabların sərgisi təşkil olunacaq.

## "İncəsənət əsərlərinin istehsalı və satışı" mövzusunda vebinar

Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə reallaşan "Art Management" layihəsi davam edir. İyulun 6-da saat 20:00-da layihə çərçivəsində "İncəsənət əsərlərinin istehsalı və satışı" mövzusunda vebinar-treninq keçiriləcək. Vebinarı kurator, sənətşünas Fərəh Ələkbərli aparacaq.




Fərəh Ələkbərli Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Təsviri incəsənətin tarixi və nəzəriyyəsi fakültəsinin magistr pilləsini bitirdikdən sonra müxtəlif illərdə "Baku Creative Centre" yaradıcılıq mərkəzinin, Mədəniyyət Nazirliyinin layihələrinin kuratoru kimi çalışıb. YARAT Müasir İncəsənət Mərkəzinin "Dəniz və dağlar arasında", "1001 gecə", "Nə hərb, nə sülh", "Danışır Bakı", "Dumanlar başımda dastana döndü" adlı qrup sərgilərinin və Əşrəf Muradın "Sevgi və etiraz", Elturan Məmmədovun "Müvafiq tədbirlər", Rəşad Ələkbərovun "Özünsən" və s. fərdi sərgilərinin kuratoru olub.

"Art Management" layihəsində silsilə treninqlər "Zoom" tətbiqi vasitəsilə keçirilir. Dinləyici qismində iştirak etmək istəyənlər qeydiyyat üçün "Art Management" başlığını qeyd etməklə artmanagementadrq@gmail.com elektron poçt ünvanına müraciət edə bilər.

Layihəni Azərbaycan Dövlət Rəsm Qalereyasının saytı (www.azgallery.az), "Facebook" və "İnstagram" sosial media hesabları vasitəsilə izləmək mümkündür.

## Muğam qrupu "Azərbaycan–Türkiyə" mahnısını yeni aranjimanda təqdim edib

"Yeni Azərbaycan" muğam qrupu türkiyəli rok ifaçı Ahmet Şafakın "Azərbaycan–Türkiyə" mahnısını yeni aranjimanda ifa edib. Gənc musiqiçilər – tarzən Ədalət Behbudov, kamança ifaçısı Pərviz Fərhadov və xanəndə Tuqay İsmayılov budəfəki ifanı Azərbaycan–Türkiyə qardaşlığına həsr ediblər.



Kamança ifaçısı, Azərbaycan Milli Konservatoriyasının müəllimi Pərviz Fərhadov torpaqlarımız düşmən tapdağında olduğu zaman xarici ölkələrdə verdikləri konsertlərdə işğal altında olan bölgələrimizin adı ilə çıxış etdiklərini bildirib: "Şükürlər olsun ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində, qəhrəman oğullarımız sayəsində torpaqlarımız işğaldan azad edildi. Bu münasibətlə biz ilk olaraq iki qardaş ölkənin dostluğuna həsr olunan "Azərbaycan–Türkiyə" mahnısını yeni aranjimanda ərsəyə gətirdik, milli ritmlər də əlavə etdik. Onu da əlavə edim ki, bu əsər ilk dəfə ulu öndər Heydər Əliyevin qarşısında ifa olunub. Bizim üçün çox xoşdur ki, ifamızı Ahmet Şafak öz rəsmi "İnstagram" səhifəsində də paylaşıb və "Qardaşlığımız əbədi olsun!" sözlərini yazıb".

Qeyd edək ki, "Yeni Azərbaycan" muğam qrupunun üzvləri – xanəndə Tuqay İsmayılov və tarzən Ədalət Behbudov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti nəzdində Bakı Humanitar Kollecində müəllim işləyirlər. Muğam qrupu dəfələrlə respublika və beynəlxalq müsabiqələrdə uğur qazanıb.

**LALƏ**

## "Səhnədən səngərə" layihəsində şəhid Tural Hümmətov

Mədəniyyət Nazirliyinin "Səhnədən səngərə" layihəsində 2020-ci ilin Vətən müharibəsində şəhid olmuş qəhrəman mədəniyyət işçilərinə həsr olunmuş videotəqdimatlar davam edir. Layihənin beşinci buraxılışı 23 yaşlı qəhrəmanımız Tural Hümmətov haqqındadır.




Tural Rövşən oğlu Hümmətov 20 may 1998-ci ildə Lənkəran şəhəri Tatova kəndində doğulub. 2016-2018-ci illərdə həqiqi hərbi xidmətdə olub. Kompüter sahəsində bilgi və bacarığı nəzərə alınaraq 2018-ci ildə Lənkəran şəhər Mədəniyyət Mərkəzinin büdcədənkənar Kompüter mərkəzində inzibatçı vəzifəsinə işə qəbul edilmişdi. İşinə məsuliyyətlə yanaşır, bu sahədə bildiklərini uşaq və gənclərə həvəslə öyrədirdi.

Tural hərbi xidmət zamanı artilleriya bölməsində qulluq etmişdi. 2020-ci il sentyabrın əvvəllərində qısamüddətli xüsusi təlimlərə cəlb olunur. Sentyabrın 27-də Vətən müharibəsi başlayanda cəbhəyə yola düşür.

Tural topçu kimi əvvəlcə Ağdərə istiqamətindəki döyüşlərdə iştirak edib. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və bir çox kəndlərimizin işğaldan azad edilməsində rəşadət göstərib. Noyabrın 7-də Şuşa şəhərinin azad edilməsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olub.

Atası Rövşən Hümmətov oğlunun şəhid olması xəbərini mətanətlə qarşılasa da, ürəyi bu itkiyə dözməyib, noyabrın 30-da dünyasını dəyişib.

Videomaterialda şəhidimizin iş yoldaşları, ailə üzvləri, öz balası kimi sevdiyi bacısının övladları onunla bağlı işıqlı xatirələrini bölüşüblər.

"Səhnədən səngərə" layihəsinin beşinci buraxılışını bu linkdə izləmək mümkündür: https://bit.ly/2Ugnc2H

# Şəhid əmisinin də qisasını alacaqdı...

Düşmən qarşısında şücaət göstərərək torpaqlarımızın azadlığı uğrunda canını sipər edən Vətən oğullarından biri də şəhid gizir Ürfan Məmmədovdur.

Ürfan Çingiz oğlu Məmmədov 1994-cü il iyunun 28-də Quba rayonunun Çartəpə kəndində dünyaya göz açıb. 2000-2009-cu illərdə Çartəpə kənd ümumi orta məktəbində təhsil alıb. Sonra rayonun Nəsib Dadaşov adına Aşağı Xuc kənd tam orta məktəbində təhsilini davam etdirib. 2011-ci ildə orta məktəbi bitirərək hərbi xidmətə yollanıb. Lənkəranda N saylı hərbi hissədə xidmət edib. Xidmət vaxtı ona verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyinə və nizam-intizamına görə hərbi hissə komandiri tərəfindən təşəkkürnamə ilə təltif olunub. Hərbi xidmətini uğurla başa vurub evə qayıtsa da, Ürfan hərb sahəsində fəaliyyətini davam etdirmək istəyirdi. Bunun da başlıca səbəbi Birinci Qarabağ müharibəsində əmisi Mais Məmmədovun Füzuli istiqamətində mərdliklə vuruşub şəhid olması idi. Ürfan tez-tez ailəsinə hərbçi kimi xidmətini davam etdirəcəyini, məqam düşən kimi əmisinin qisasını alacağını bildirirdi.

Ürfan Məmmədov 2017-ci ildə gizirlik kurslarına yazılır. Kursu müvəffəqiyyətlə başa vurur və Mingəçevir şəhərindəki N saylı hərbi hissədə gizir kimi xidmətə başlayır.



2020-ci ilin iyulunda döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə hərbi hissə komandiri tərəfindən fəxri fərmanla təltif olunur.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsi illərdir qisas hissi ilə yanıb-tutuşan, düşmənə döyüş meydanında layiqli cavab verərək torpaqlarımızı azad etmək istəyən igid oğullarımız üçün hünər meydanı idi. Ürfanın da gözlədiyi məqam gəlib çatmışdı. Artıq qisas qiyamətə qalmayacaqdı. O da müharibənin birinci günündən savaş meydanına atılır. Sentyabrın 28-də Tərtərin Suqovuşan və Talış kəndləri istiqamətində silahdaşları ilə düşmənin müqavimətini qırmağa nail olurlar.

Ürfan kürəyindən qəlpə yarası alsa da, bir neçə saat qəhrəmancasına vuruşur. Artıq yaralı döyüşçünün sursatı tükənirdi. Döyüş yoldaşından sursat almaq istəyən zaman düşmən snayperindən yara alır...

Qardaşı Sübhan Məmmədov deyir ki, Ürfanla sentyabrın 27-də əlaqə saxlayıb: "Axşam saat 6 radələrində qardaşımla danışdım. Dedi ki, illərdir gözlədiyimiz gün gəlib çatıb. Ordumuz düşmən üzərinə əks-hücuma keçib. Özünüzdən muğayat olun". Bir gün sonra Sübhan qardaşına zəng etsə də, əlaqə qura bilmir. Sentyabrın 29-da səhər saatlarında Ürfanın şəhid xəbərini alırlar.

Ürfan Məmmədov sentyabrın 30-da doğulduğu kəndə yenidən qayıdır. Ancaq bu dəfə üçrəngli bayrağa bükülmüş vəziyyətdə və əbədi uyumaq üçün... Döyüş yoldaşları Ürfanla yanaşı, şəhid əmisinin də qisasını yağıda qoymadılar. Qəhrəman Ordumuz Ermənistan silahlı qüvvələrini darmadağın edərək parlaq Qələbə qazandı, ərazi bütövlüyümüzü bərpa etdi.

Ölkə başçısının müvafiq sərəncamları ilə Ürfan Məmmədov ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# Krımdan Bakıya sənət yolu

## Asan Refatov Azərbaycan Bəstəkarlar İttifaqının ilk sədri olub



XX əsrin əvvəllərində Krım tatarlarının mədəni həyatında Refatovların xüsusi xidmətləri olub. Bu ziyalı ailənin bir üzvü Asan Refatov bəstəkar-pedaqoq kimi tanınıb. Onun həyatının müəyyən bir dövrü ölkəmizlə də bağlıdır.

Asan Mamut oğlu Refatov 8 iyul 1902-ci ildə Krımın Bağçasaray şəhərində dünyaya göz açıb. Atası musiqiçi və pedaqoq idi. Asan da orta təhsilini atasının dərs dediyi məktəbdə alır. Hələ məktəbli ikən musiqiyə dərin maraq göstərir. Simli instrumental alətlərdə, fortepianoda çalmağı öyrənir. İlk not dərsləri isə böyük qardaşı, mahir kamançaçı Midətdən alır.

Asan Refatov 1922-ci ildə Ağməscidə (Simferopol) Totaykıy Tatar Texnikumunda musiqi müəllimi kimi işə düzəlir. Az sonra burada nəfəsli orkestr təşkil edir. Gündüzlər dərs deyir, gecələr isə musiqi əsərləri yazır. Qısa zamanda "Totaykıy marşı", Bəkir Çobanzadənin şeirinə "İgid marşı", Şevki Bektörenin şeirinə "Qış gününde dileyim", Umer İpçinin sözlərinə "Gənc bülbülcük" mahnılarını bəstələyir, "Leyli-Məcnun", "Tahir-Zöhrə" və A.S.Puşkinin "Bağçasaray fontanı" poeması əsasında hazırlanan tamaşalara musiqilər yazır.

Bir müddət sonra qardaşı ilə birlikdə musiqi proqramı hazırlayır. Şəhər sakinləri qarşısında çıxış edirlər. Milli ruhlu qardaşların ideyaları tanınmış tarixçi-etnoqraf Osman Nuri Akçokraklının (1879-1938) diqqətindən yayınmır. O, Asan Refatovla görüşür və ona tatar türkləri arasında məşhur olan "Çora Batır" dastanı əsasında opera yazmağı tövsiyə edir. Beləliklə, bəstəkar 3 pərdəli opera yazır. "Çora Batır" 1923-cü ilin sentyabrında Ağməsciddəki Qızıl Əsgər Klubunda səhnəyə qoyulur və maraqla qarşılanır. Krım tatarlarının görkəmli alimi Azərbaycan dilçilik elminin banilərindən biri Bəkir Çobanzadə tamaşa haqqında yazır: "Bu opera Krım-tatar sənət tarixində ilk görülən ən güclü, ən sevimli mədəni və siyasi vaqiyə (hadisə) oldu. Əsərin müəllifləri Osman Nuri Akçokarlı və Asan Refatov bununla xalqının mədəni həyatında silinməz iz qoydular".

Tədqiqatçı Əli Şamil araşdırmasında yazır ki, "Çora Batır" operası 1924-cü ildə ikinci dəfə səhnəyə qoyulur. Lakin ölkə rəhbərliyi operanın xalq arasında böyük maraq, insanlarda vətənpərvərlik və milli hisslər oyatmasından narahat olur. Buna görə də əsərin nümayişinə qadağa qoyulur. Bütün bunlara baxmayaraq, Asan Refatov boş dayanmır. Eyni vaxtda bir sıra tamaşalara musiqilər yazır. Zaman ötdükcə bəstəkar musiqi təhsilinin vacibliyini hiss edir. 1926-cı ildə ali musiqi təhsili almaq üçün Azərbaycana gəlir. Bakıda dahi bəstəkar Üzeyir Hacıbəyli ilə görüşür. Öz üzərində böyük səylə çalışaraq Azərbaycan Dövlət Konservatoriyasına qəbul olunur. Böyük həvəs və arzu ilə 1930-cu ildə təhsilini başa vurur. Ancaq geri dönmək istəmir.



Konservatoriyada pedaqoji fəaliyyətini davam etdirir. 1931-ci ildə konservatoriyaya prorektor təyin edilir. 1934-cü il isə 32 yaşlı A.Refatov yeni yaradılan Azərbaycan Bəstəkarlar İttifaqının ilk sədri seçilir. Lakin onun bu quruma sədrliyi uzun çəkmir. O, 1935-ci ildə Krım Mərkəzi İcraiyyə Komitəsi tərəfindən vətənə dəvət edilir. Beləliklə, bəstəkar işindən ayrılıb Krıma dönür. Orada dövlət işi ilə bərabər, bəstəkarlıq fəaliyyətini də davam etdirir. Yusif Bolatovun "Toy davam edir", "Nəsrəddin Xoca", İlyas Tarkanın "Hücum" pyeslərinə musiqilər yazır. Tatar xalq mahnılarını nota köçürür. Onun "Şüştər" süitası isə Azərbaycan Bəstəkarlar İttifaqı tərəfindən Parisdə keçirilən festivala göndərilir...

Ancaq bu rahat və xoş günlərin ömrü uzun olmur. 30-cu illər repressiyasının acı yelləri Krımda da əsməyə başlayır. Milli ruhlu ziyalılar haqsız olaraq tənqid və təqibə məruz qalır. 1937-ci ilin aprelində Asan və qardaşı Reşat gizli "Turan dövləti" yaratmaqda ittiham olunaraq həbsə atılır. Bir il sonra, 1938-ci ilin avqustunda 78 yaşlı ataları Mamut Refatov da həbs edilir. Beləliklə, bolşevik müstəmləkəçiləri Krımda maarif və mədəniyyəti yaşadan bir ailənin həyatına son qoyurlar. Ancaq onların ideyalarını məhv edə bilmirlər. Çünki Refatovların zəngin mədəni-maarif mirası bu gün də öyrənilir, təbliğ edilir.

**Savalan FƏRƏCOV**

# Etibarlı gələcək üçün...

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 noyabr tarixli sərəncamı ilə təsdiq olunan "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020–2025-ci illər üçün Fəaliyyət Planı" təhsil, səhiyyə, sosial müdafiə, mədəniyyət və idman sahələrində bütün uşaqlar üçün bərabər imkanlar yaradılmasını nəzərdə tutur. Sənədin məqsədi uşaq hüquqlarının müdafiəsi sahəsində çevik institusional mexanizm formalaşdırılmasından və aidiyyəti dövlət orqanlarının (qurumların) qarşılıqlı fəaliyyətinin təmin edilməsindən ibarətdir.

Fəaliyyət planında Mədəniyyət Nazirliyinin bir sıra dövlət orqanları ilə birgə həyata keçirməli olduğu tədbirlər də əksini tapıb. Tədbirlər uşaqları zərərli informasiyadan qorunması üçün tədbirlərin gücləndirilməsi; müxtəlif yaşlı uşaqların Azərbaycan dili biliklərini inkişaf etdirəcək müasir vasitələrlə (jurnallar, kitablar, televiziya verilişləri və s.) təmin edilməsi üçün tədbirlər görülməsi, uşaqlarda düzgün nitq vərdişlərinin və bacarıqlarının formalaşdırılması məqsədilə müvafiq tövsiyələr hazırlanması; uşaq teatrının və uşaqların ədəbi-bədii yaradıcılığının inkişafı istiqamətində tədbirlərin genişləndirilməsi; mərkəzi kitabxanaların, kitabxana fondlarının uşaq ədəbiyyatı və uşaqlar üçün nəzərdə tutulan müxtəlif informasiya resursları ilə komplektləşdirilməsi və kitabxanaların sağlamlıq imkanları məhdud olan 18 yaşınadək uşaqlar üçün xüsusi kitabxana texnikası və nəşriyyat məhsulları ilə (Brayl əlifbası, audiokitab və s.) təchiz edilməsini əhatə edir. Bundan əlavə, uşaqların asudə vaxtının səmərəli təşkili, uşaq istirahət yerlərinin, idman və mədəniyyət ocaqlarının fəaliyyətinin təkmilləşdirilməsi; uşaqlar (sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların maraqları nəzərə alınmaqla) üçün teleradio məhsullarının, xüsusilə cizgi filmlərinin, uşaq mahnılarının, uşaq tamaşalarının və maarifləndirici sosial çarxların hazırlanmasına dair dövlət sifarişlərinin verilməsi kimi məsələlər də tədbirlər planında yer alıb.

Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi və incəsənət məktəbləri, teatr, muzey və kitabxanalar, mədəniyyət evləri və s. mütəmadi olaraq mövzu üzrə müxtəlif layihələr həyata keçirirlər. Layihələr uşaqların asudə vaxtının səmərəli təşkilinə xidmət etməklə yanaşı, onların zərərli vərdişlərdən uzaq olmasına, zərərli informasiyalardan qorunmasına öz töhfəsini verir. Çünki təşkil edilən tədbirlər maarifləndirici, yaradıcılığı təşviq etməklə yanaşı, uşaqlara estetik zövq aşılayır, onların yaşına uyğun faydalı informasiyalardan yararlanmasına imkan verir.

Məlum olduğu kimi, 2020-ci ilin mart ayından pandemiya səbəbindən Azərbaycanda, bir sıra sahələr kimi, mədəniyyət sahəsində də fəaliyyət məhdudlaşıb. Mədəniyyət müəssisələri daha çox onlayn rejimdə çalışır, virtual layihələr həyata keçirirlər. Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə qarşıya qoyulan vəzifələrin icrasında müəyyən problemlər olsa da, müxtəlif virtual layihələr icra olunub.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı və Dövlət Kukla Teatrı virtual formatda tamaşalar təqdim ediblər. Gənc Tamaşaçılar Teatrının repertuarında olan "Ağ ölüm" tamaşası narkotik vasitələrin insanlıq üçün ağır nəticələrinə həsr edilib. Bu tamaşanın uzun müddətdir repertuarda olması məhz uşaqların zərərli vərdişlərdən uzaq olması üçün təbliğat-təşviqat vasitəsi kimi hesablanıb. Dövlət Kukla Teatrının "Ağ və Qara" tamaşası, "Ağ babanın nağılı", "Zəng" və bu qəbildən digər tamaşaları da bəşəri bəlaya – narkomaniya fəlakətinə həsr olunub.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası, eləcə də paytaxt rayonlarının Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinin (MKS) mərkəzi kitabxanaları və filialları Azərbaycan dilinin saflığının qorunması və xalq yaradıcılığının təbliği ilə əlaqədar onlayn nağıl axşamları, yazıçılarla görüşlər və s. tədbirlər təşkil ediblər. Bu layihələrin əksəriyyəti karantin məhdudiyyətləri səbəbindən virtual formatda, sosial şəbəkələr üzərindən təqdim olunub və maraqla qarşılanıb.

Uşaqların hərtərəfli inkişafını və sosiallaşmasını təmin edən informasiya məhsullarının dövriyyəsinə şəraitin yaradılması məqsədilə Respublika Uşaq Kitabxanasının təqdim etdiyi ölkəşünaslıq və milli ədəbiyyat nümunələrinin virtual təqdimatı, habelə bir sıra kitabxanalarda həyata keçirilən "İbrətamiz hekayələr axşamı", "Milli Qəhrəmanlarımızı tanıyaq", "Kitabxanaçı tövsiyə edir" layihələri də məhz uşaqlara dair Strategiyanın icrası istiqamətində atılan addımlardır.

Milli Xalça Muzeyi qeyri-maddi mədəni irs nümunələrimizi gənc nəsillər arasında təbliğ etmək məqsədilə rəngarəng layihələr həyata keçirir. Muzeyin Uşaq şöbəsi təhsil müəssisələri, uşaq təşkilatları ilə sıx əməkdaşlıq edir. Uşaqlar muzeyin ekspozisiyası ilə tanış olur, dekorativ-tətbiqi sənət üzrə birgünlük və ya aylıq ustad dərslərinə qatılır, xalça toxumağı, tikmə sənətini, rəsm çəkməyi, dekorativ oyuncaqlar düzəltməyi öyrənir, habelə kukla tamaşalarını izləyir və nağıllar dinləyirlər. Bütün bunlar uşaqlarda xalqımızın milli dəyərləri, çoxəsrlik ənənələri, həyat tərzi ilə bağlı təsəvvür yaradır, onların muzeylərə marağını artırır, mənəvi inkişafına müsbət təsir edir. Bu mənada milli geyimlərimizin tikilməsi və təbliği məqsədilə həyata keçirilən "Nənəmin sandığından yaranmış "Fashion Show" təhsil proqramı da Milli Xalça Muzeyinin maraqlı layihələrindən biridir. Bu ilin 1 mart – 1 iyun tarixini əhatə edən proqrama 10-18 yaş arası uşaqlar qatılıb. Üç ay müddətində muzeyin Uşaq şöbəsinin mütəxəssisləri tərəfindən onlara milli geyimlərimiz, onların tarixi, tikmə sənəti, eskizlərin işlənməsi, parçalardan istifadə qaydaları, məmulatın tikilmə üslubu haqqında nəzəri və praktik dərslər keçilib. Layihənin sonunda proqramı uğurla başa vuran uşaqlara sertifikatlar təqdim olunub. Onların əl işləri olan 14 geyim nümunəsindən ibarət moda nümayişi keçirilib.

Bundan əlavə, görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin mənzil-muzeylərində pandemiyadan əvvəl məktəblilərlə təşkil edilən görüşlərin karantin şəraitində onlayn formatda davam etdirilməsi bu sahədə fəaliyyətin davamlılığını göstərir. Muzey və sərgi salonlarının fəaliyyətinin bərpa olunmasından sonra Milli İncəsənət Muzeyi və Musiqi Mədəniyyəti Dövlət Muzeyinin uşaqlarla bağlı müxtəlif layihələri, o cümlədən rəsm gecələri, ustad dərsləri və s. gerçəkləşib.

Onu da qeyd edək ki, həyata keçirilən bir sıra layihələrdə ölkəmizin tarixi-mədəni zənginlikləri, ədəbiyyatı, təbiəti və s. sahələrin təbliği diqqət mərkəzində saxlanılır. Məsələn, Respublika Uşaq Kitabxanasının "Qarabağın zəngin irsini – gələcək nəsillərə" layihəsi, H.Sarabski adına 7 nömrəli Uşaq musiqi məktəbinin "Uşaqların gözü ilə dünya" adlı konserti, Mədəniyyət Nazirliyinin də təşkilatçılardan olduğu "Üç alov" uşaq və gənclərin onlayn II beynəlxalq folklor, klassik və müasir yaradıcılıq festivalı, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyində "Gənc musiqiçilər və qiraətçilər muzeydə" adlı tədbir, "Azərbaycanım" uşaq rəsm festivalı və festival çərçivəsində təşkil olunan müsabiqələr, plenerlər, uşaqların da təmsil olunduğu vətənpərvərlik mövzusunda ədəbiyyat müsabiqəsi və digər layihələr yeni nəsillərin hərtərəfli inkişafına stimul verən diqqətəlayiq işlərdir.

Mədəniyyət Nazirliyinin regional mədəniyyət idarələrinin tabeliyində fəaliyyət göstərən müəssisələr də Uşaqlara dair Strategiya üzrə Fəaliyyət planında qeyd olunan müddəalar çərçivəsində sərgilər, müsabiqələr, təqdimatlar həyata keçirirlər. Ümid edirik, pandemiya vəziyyəti tam aradan qalxdıqdan sonra bu yöndə tədbirlər davamlı şəkildə, həm də uşaqların özlərinin geniş iştirakı ilə gerçəkləşəcək.

**Lalə AZƏRİ**

## "Türkologiya" jurnalının 50 illiyi münasibətilə konfrans

AMEA-nın Naxçıvan Bölməsində "Türkologiya" jurnalının 50 illik yubileyi münasibətilə konfrans keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev tədbiri açaraq bildirib ki, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun nəzdində fəaliyyət göstərən jurnal Türk dünyasının nüfuzlu elmi nəşrlərindəndir. Jurnal dünyadakı türkoloji mərkəzlərin əməkdaşlığına və elmi əlaqələrin genişləndirilməsinə də xidmət edir.

Konfransa onlayn qoşulan "Türkologiya"nın baş redaktoru, akademik Kamal Abdulla jurnalın tarixi barədə məlumat verib. Bildirib ki, jurnal SSRİ Elmlər Akademiyası və Azərbaycan Elmlər Akademiyasının birgə nəşri kimi "Sovetskaya türkologiya" adı ilə 1970-ci ilin aprelindən nəşr olunub. 1992-ci ildən "Türkologiya" adı ilə buraxılır. Hazırda ildə dörd nömrəsi nəşr edilən jurnalda ölkəmizin alimlərinin, eləcə də əcnəbi türkoloqların Azərbaycan, türk, rus və ingilis dillərində məqalələri dərc edilir.

Sonra bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Türkologiya" jurnalı və qədim türk abidələrinin öyrənilməsi məsələləri", institutun şöbə müdirləri, filologiya üzrə fəlsəfə doktorları Firudin Rzayevin "Türkologiya" jurnalı və türk onomastikasının öyrənilməsi məsələləri", Nuray Əliyevanın "Türkologiya" jurnalı və türk dialektologiyasının öyrənilməsi" mövzularında çıxışları dinlənilib.

# "Vağzalı" sözü rəqs sənətinə necə gəlib?

**Redaksiyadan.** *Yazı redaksiyaya 2020-ci ilin martında təqdim edilmişdi. Lakin elə həmin ayda pandemiya səbəbindən toy mərasimləri təxirə salındığı üçün dərc edilməsi ləngidi. Bir il üç aydan sonra (1 iyul tarixindən) toylar yenidən başlayır. "Vağzalı"nın da çalınma vaxtıdır...*

Ölkəmizdə yaradılan rəqslərin bir çoxu özündə qədim və zəngin tariximizi yaşadır. Rəqs sənəti ilə bağlı Azərbaycanda ən qədim yazılı abidə "Kitabi-Dədə Qorqud" dastanı sayılır. Şifahi ədəbiyyatımızın şah əsəri, zirvəsi olan bu dastanda "Qanlı qoca oğlu Qanturalı boyu"nda gəlinlərin rəqs etdiyi qədim bir havanın adı qeyd olunur: "Ozan gəldi, "Yelətmə" çaldı".

Məşhur qorqudşünas alim, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Samət Əlizadə (1938-2002) həmin boyu sadələşdirilmiş variantında, yəni "yelətmə" sözünün izahını gəlin havası kimi təqdim etmişdir. Deməli, "Yelətmə" o dövrdə gəlin havası olub, indiki "Vağzalı" əvəzində ifa edilib. Onu da bildirək ki, Azərbaycan musiqi mədəniyyətində "Yelətmə" adlı yallı növü də olmuşdur. Bu rəqs kollektiv şəkildə, yallıvarı icra edilirmiş. İnsanlar əl-ələ verib yellənmişlər, rəqsin adının kökündə də "yel" sözü durur. Mütəxəssislər "Yelətmə" sözünün etimoloji baxımdan "Yallı" sözü ilə bir-birinə bağlı olduğunu bildirirlər.

"Dədə Qorqud" dastanlarının əksəriyyəti eradan əvvəl yaranmışdır. Qorqudşünas alimlərin fikrincə, bu dünyaya bir çox Dədə Qorqudlar gəlib-getmişlər. Deməli, dastanda vəsf olunan "Yelətmə" havası və eləcə də qolça qopuz çalğı aləti də eradan əvvəl yaranmışdır. Qolça qopuzun yaranma tarixi arxeoloji qaynaqlara görə, e.ə. VI-V minilliklərə gedib çıxır. Ehtimal olunur ki, həmin dövrlərdə gəlin gətirmə mərasimlərində "Yelətmə" qolça qopuzda ifa olunurmuş.

Bilindiyi kimi, "Vağzalı" rəqsi də "Yelətmə" kimi Azərbaycanda, əsasən, gəlin gətirmə mərasimində ifa edilir. XVI əsrdə Azərbaycanda məskunlaşmış Qaraqoyunlu qəbiləsinə məxsus olan "Qarabağın ağırı" və yaxud "Asta Qarabağı" rəqslərinin musiqi motivləri də "Vağzalı" rəqsində özünü göstərir. Bu baxımdan bəzi mütəxəssislər "Vağzalı"nın həmin rəqslərdən yarandığını düşünürlər. Biz isə bu fikirlərlə razılaşmırıq, çünki gəlin gətirmə mərasimlərinin yaranması oğuzların ibtidai dövrünə gedib çıxır. Bu melodiyada oğuzun ruhu vardır. "Kitabi-Dədə Qorqud" dastanında belə bir musiqinin ifa edildiyinin şahidi oluruq. O başqa məsələdir ki, tarixin müxtəlif mərhələlərində bu rəqs fərqli adlar daşımışdır: "Yelətmə", "Atlanma", "Asta Qarabağı", "Qarabağın ağırı", nəhayət, "Vağzalı".



Bəs hansı səbəbdən kökü "Yelətmə" olan rəqslər sonradan "Vağzalı" adını almışdır?

Əslində, rəqsin melodiyasının vağzalla heç bir əlaqəsi yoxdur. Dədə Qorqud dövründən sonra gəlini bəzədilmiş faytonda aparıblar, ona görə də havanın adına "Atlanma" deyiblər.

"Vağzal" sözü dilimizə XIX əsrin sonlarında, daha dəqiqi, 1880-ci ildə Azərbaycanda ilk dəmiryolu (Bakı-Suraxanı-Sabunçu) xətti istifadəyə verildikdən sonra daxil olmuşdur. Əsli ingiliscədən olan "vauxhall" sözü rus dilində "vokzal", Azərbaycan dilində isə "vağzal" şəklində tələffüz edilmişdir.

Görünür, Bakıda ilk vağzal açılandan sonra kimsə övladına toy etdikdə gəlini Sabunçuya və yaxud Suraxanıya faytonla deyil, qatarla aparmaq qərarına gəlir. Yəqin ki, gəlinin evi də vağzala yaxın olubmuş. Bəyin atası gəlinin yaşadığı həyətə musiqiçilərlə daxil olur. El adətinə uyğun olaraq zurnaçılar dəstəsi öncə "Atlanma" havasını ifa edirlər. Sonra qohum-əqrəba qol qaldırıb müxtəlif oyun havalarını rəqs edirlər. Bəyin atası musiqiçilərə deyir: "Həzərat, artıq vaxtdır, bir "Vağzalı" çalın, yola düşək, qatara gecikməyək". Musiqiçilər də, təbii ki, gəlin havası "Atlanma" olduğundan bu rəqsi ifa edirlər. Həmin gündən "Atlanma"ya "Vağzalı" deyilir və bu söz dəbə düşür.

Tanınmış musiqişünas Firudin Şuşinski bildirir ki, 1914-cü ildə məşhur qarmonçalan Kərbəlayı Lətif "Ekstrafon" cəmiyyəti tərəfindən Kiyev şəhərinə dəvət edilmiş, burada bir sıra muğam və rəqslərlə yanaşı, "Vağzalı" oyun havasını da ifa edib vala yazdırmışdır.

"Vağzalı" rəqsinin adına Əlihüseyn Dağlının 1924-cü ildə qələmə aldığı "Ozan Qaravəli" adlı əsərində də rast gəlirik. 1936-cı ildə isə Səid Rüstəmov "Vağzalı" rəqsini notlaşdırmışdır. Bu rəqs "Segah" məqamında, moderato tempində və 6/8 ölçüsündə bəstələnmişdir. "Vağzalı"nın melodiyası dinləyicidə sevinc və həsrət hisslərinin vəhdətini təşkil edir. Övladını yola salan ailə ayrılıq, hicran hissləri keçirirsə, oğlan evinin nümayəndələri isə tam fərqli ovqatda (sevinc, şad, xürrəm, vüsal və s.) olur.

Tanınmış müğənni, Əməkdar artist Təranə Vəlizadə "Vağzalı" rəqsi ilə bağlı söyləyir: "Mən belə düşünürəm ki, keçmişdə zurna, müasir dövrdə isə klarnetçalanların sənətkarlıq səviyyəsini müəyyənləşdirmək, onlara qiymət vermək və çalğısını yoxlamaq üçün ifalarında təkcə "Vağzalı"nı dinləmək kifayətdir. "Vağzalı" elə bir musiqidir ki, orada ifaçı bütün hiss və ovqatlarını – sevinc, kədər, can yanğısı, intizar, həyəcan, hicran, ayrılıq və s. büruzə verə bilir. Hər musiqiçinin öz ürəyi nə qədər yük çəkə bilirsə, eləcə də çalır. Mən ifaçılardan çox gözəl "Vağzalı"lar eşitmişəm. Onların hər biri bu rəqsi özünəməxsus, öz dəst-xətti ilə ifa edib".

"Vağzalı" oyun havası 1937-ci ildə Şəki musiqiçilərinin – qoşanağara çalan Əhmədağa Məhərrəmovun dəstəsinin ifasında lentə alınmışdır. Böyük bəstəkar Üzeyir Hacıbəyli uzaqgörənlik edərək öz tələbələrinə tövsiyə edirdi ki, bəzi qədim rəqslərdən əsərlərində istifadə etsinlər ki, onlar unudulmasın, həm də başqa xalqlar gələcəkdə bu rəqslərə yiyə dura bilməsinlər. Yəni həmin not nümunələri əsasında illər ötdükdən sonra deyə bilək ki, hələ XX əsrin birinci yarısında bəstəkarlarımız müvafiq rəqsləri notlaşdırıb və əsərlərində istifadə etmişlər. Onu da qeyd edək ki, Azərbaycanın bir sıra rəqs melodiyalarını mənimsəyən erməni musiqiçiləri "Vağzalı"dan da yan keçməyiblər. Bəstəkar Aram Xaçaturyan (1903-1978) "Qayane" baletinin "Qılınclarla rəqs" hissəsində "Vağzalı"nın melodiyasından fraqment şəklində istifadə etmişdir. Yeri gəlmişkən, adıçəkilən baletdə Azərbaycan xalq rəqsləri "Şələqoy" ("Şalaxo") və "Uzundərə"dən də istifadə olunmuşdur.

Beləliklə, araşdırmalardan bəlli olur ki, "Kitabi-Dədə Qorqud" dastanında qeyd edilən "Yelətmə" rəqsi "Vağzalı"nın ilkin növü, prototipidir.

**Abbasqulu NƏCƏFZADƏ**
**sənətşünaslıq elmləri doktoru, professor**

# Azərbaycan xalçaları əcnəbi filmlərdə

Şöhrəti dünyaya yayılan Azərbaycan xalçalarının məşhur muzeylərin eksponatları sırasına daxil olduğu, şəxsi kolleksiyalarda yer aldığı və məşhur rəssamların əsərlərində təsvir olunduğu artıq bizə məlumdur. Bununla yanaşı, XX əsrin 2-ci yarısından etibarən bir sıra əcnəbi filmlərdə Gəncə, Qazax, Quba, Şirvan, Qarabağ, Təbriz xalçalarını görmək mümkündür. Azərbaycan xalçaları rənglərinin al-əlvanlığı, ornamentlərinin bolluğu, simvolik mənası ilə Avropa ölkələrində, həmçinin digər ölkələrdə məşhurlaşmış, insanların sevimli məişət əşyasına çevrilmişdir. Bunun nəticəsidir ki, biz əcnəbi filmlərdə xalçalarımıza tez-tez rast gəlirik.





Bu filmlərdən ilk olaraq "The dead zone" ("Ölü zona", ABŞ, 1983) filmini qeyd etmək olar. Yazıçı Stiven Kinqin eyniadlı əsəri əsasında ekranlaşdırılmış filmin rejissoru David Kronenberqdir. Filmdə biz dəfələrlə Azərbaycan xalçalarının təsvirini görürük. Onlardan biri "Çıraqlı" xalçasıdır. Xalça adını Gəncə şəhərindən 35 km cənubda yerləşən Çıraqlı kəndinin adından almışdır. "Çıraqlı" xalçası təkcə Gəncə deyil, Şirvan xalçaçılıq məktəbində də toxunurdu.

Filmdə təsvir olunmuş xalçanın göy yerlikli ara sahəsində bu xalçalara xas olan şaquli formada bir-birinin ardınca düzülmüş düzbucaqlı formalı medalyonlar təsvir olunub. Xalçanın şəkəri rəngli ana haşiyəsində isə "Beşik" adlanan element təsvir edilib. Bu element altıbucaqlı və yaxud da romb formada olur, aşağı və yuxarı tərəfdən qoç buynuzuna bənzər motivlə birləşir. Ortaq türk damğası hesab olunan bu elementə xalçalarımızda tez-tez rast gəlinir. Onlardan əsasən xalçaların haşiyə zolaqlarında istifadə olunur.

Növbəti film rejissor Kventin Tarantinonun "İnglourious Basterds" ("Şərəfsiz əclaflar", ABŞ, 2009) filmidir. Məşhur filmin elə ilk səhnələrində Qubanın "Zeyvə" xalçasını görürük. "Zeyvə" xalçaları qədim və zəngin tarixə malikdir. Xalçanın adı Qubadan 30 km cənub-şərq istiqamətində yerləşən kəndin adından götürülüb. Bu kompozisiya, həmçinin Qazax, Gəncə, Şirvan xalçaçılıq məntəqələrində də toxunub.

Filmdə gördüyümüz kiçikölçülü "Zeyvə" xalçasının ara sahəsində bir-birinin ardınca yerləşdirilmiş ulduz formalı göllər təsvir olunub. Qırmızı yerlikli ara sahədə boş qalan hissələr doldurucu elementlərlə tərtib olunub. Ana haşiyədə isə "Məşəl" haşiyə bəzəyindən istifadə edilib.

Digər bir ekran əsəri rejissor Robert Zemeckisin "What lies beneath" ("Yalan nəyi gizlədər", ABŞ, 2000) filmidir. Filmdə Qubanın "Bilici" xalçasını görürük. Xalçanın sürməyi rəngli ara sahəsində kətəbələr və kiçik göllər təsvir olunub. Ana haşiyədə isə, "Çıraqlı" xalçasında olduğu kimi, "Beşik" adlanan simvolik ornament var.

Çoxseriyalı filmlərdə də Azərbaycan xalçalarına rast gəlmək mümkündür. Buna misal olaraq "Freud" (Avstriya-Almaniya, 2020) teleserialını göstərmək olar. Psixoanalizin banisi Ziqmund Freydin həyatından bəhs edən serialda Təbriz xalçaları təsvir olunub. Təsadüfi deyil ki, Z.Freydin Ev-Muzeyində də Təbriz xalçalarına rast gəlinir. Freyd xəstələri qəbul etdiyi otağı hər zaman xalçalarla döşəyərdi. Bu xalçalar içərisində Təbriz xalçaları üstünlük təşkil edirdi. Freydə görə, bu xalçalar xəstələrə rahatlıq, ruh yüksəkliyi gətirirdi.

Azərbaycan xalça ornamentlərinə də rast gəlinən ekran əsərlərinə misal olaraq "Angel Heart" ("Mələk qəlbli", ABŞ, 1987; "Qoşabuynuz" elementi), "Good will hunting" ("Can dostum", ABŞ, 1997; "Qarmaqlı" elementi) filmlərini də göstərmək olar. Belə filmlərin sayı çoxdur. Bu filmlər Azərbaycan xalçalarının şöhrətindən xəbər verir. Əminliklə deyə bilərik ki, Azərbaycan xalçaları və xalçalardakı simvolik ornamentlər dünyanın bir çox ölkələrinin incəsənətinə təsir edib və bu təsir hələ də davam edir.

**Laçın ASLANOV**

# "Oğurlanmış Zəngəzur"

Yazıçı Güllü Məmmədovanın "Oğurlanmış Zəngəzur" tarixi-sənədli romanı çapdan çıxıb. Kitab Zəngəzurun sovet dövründə Azərbaycandan alınıb Ermənistana verilməsinin xalqımıza qarşı böyük ədalətsizlik olması haqqında ulu öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləri ilə açılır.




Romanda 1918-1920-ci illərdə Zəngəzurda və Qarabağda ermənilərin törətdiyi qanlı hadisələrdən, soyqırımlarından bəhs edilir. Müəllif romanda zəngəzurluların vətənə bağlılığı, döyüşkən ruhunu təsvir edib. Laçın rayonundan olan Sultan bəyin, qardaşı – Qarabağın general-qubernatoru (Xalq Cümhuriyyəti dövründə) Xosrov bəyin vətən qarşısında fədakarlığı əsərin aparıcı xəttidir.

Romanda Qarabağın və Zəngəzurun fövqəladə komissarı olmuş Aslan bəy Sultanovun fəaliyyəti real hadisələr əsasında təsvir edilib. Daşnaklarla mübarizədə misilsiz xidmətləri olan Çingiz İldırımın fəaliyyəti haqqında da söhbət açılır. 1920-ci ildə Qarabağı erməni işğalından qorumaq üçün əsgərləri ilə bu savaşda iştirak edən general Həbib bəy Səlimovun igidliyi, vətənpərvərliyi haqqında geniş məlumat verilir.

Əsərdə sovet hakimiyyəti dövründə Zəngəzur mahalının Ermənistana verilməsinin səbəbi tarixi faktlarla açıqlanır.

Yazıçı Güllü Məmmədova bundan əvvəl "Qarabəkir əfsanəsi", "Kalbalı xan", "Qan işində işıq" tarixi-sənədli romanlarını qələmə alıb. "Qan içində işıq" Türkiyədə də nəşr edilib.

## Xatirə təqvimi 3-6 iyul

### Azərbaycan

**3 iyul 1940** – Xalq artisti, tanınmış pianoçu Zöhrab Əfrasiyab oğlu Adıgözəlzadə (1940 – 24.5.2012) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub, Əskişəhər Universiteti Dövlət Konservatoriyasında (Türkiyə) kafedra müdiri işləyib.

**3 iyul 2000** – Aşıq Xaspolad Gülablı (Xaspolad Salman oğlu Mirzalıyev; 1919-2000) vəfat edib.

**4 iyul 1920** – Azərbaycan İnqilab Komitəsi kino qurğularının milliləşdirilməsi haqqında dekret verib. Respublikadakı bütün kinematoqrafiya müəssisələri Xalq Maarif Komissarlığının yanında İncəsənət Şöbəsinin ixtiyarına verilib. Daha sonra İncəsənət Şöbəsinin yanında Mərkəzi Kinoprokat (Sentroprokat) idarəsi yaradıldı.

**4 iyul 1928** – Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi Kamran Nəbi oğlu Rəhimov (1928 – 4.7.2007) Naxçıvan MR Şərur rayonunun Qarabağlar kəndində doğulub. Maarif naziri (1983-1988), Ali Sovetin deputatı (1990-1995) olub.

**5 iyul 1851** – Publisist, alim və ictimai xadim İsasultan Nəcəfqulu oğlu Şahtaxtinski (1851 – 18.10.1894) İrəvanda anadan olub. "Tiflisski vestnik" qəzetində şöbə müdiri, "Kavkazski almanax"ın təsisçisi, naşiri və redaktoru olub.

**5 iyul 1928** – Əməkdar artist Əzizağa (Ağababa) Qasım oğlu Qasımov (1928 – 18.2.1985) Bakıda doğulub. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının aktyoru olub, filmlərdə, televiziya tamaşalarında yaddaqalan rollar oynayıb.

**6 iyul 1918** – Yazıçı-tərcüməçi Şəfiqə Əli qızı Ağayeva (1918-1983) Ağdamda anadan olub. Azərbaycan uşaq ədəbiyyatının inkişafına töhfələr verib. Rus yazıçılarının uşaq və yeniyetmələr üçün hekayə və povestlərini dilimizə tərcümə edib.

**6 iyul 1947** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Xanlar Daşdəmir oğlu Cəfərov (1947-2016) anadan olub.

### Dünya

**3 iyul 1883** – Yəhudi əsilli çex-alman yazıçısı, filosof Frans Kafka (Franz Kafka; 1883 – 3.6.1924) Praqada doğulub. Əsərləri: "Bir xanımın xülasəsi", "İtaətkarla söhbət", "Çevrilmə", "Qəsr", "Kənd həkimi" və s.

**3 iyul 1908** – Fransız yazıçısı və ssenaristi Toma Narsejak (Thomas Narcejac, əsl adı Pierre Robert Ayraud; 1908-1998) anadan olub.

**4 iyul 1676** – İspan dramaturqu Xose Kanisares (1676-1750) anadan olub.

**4 iyul 1918** – Rus filosofu, kulturoloq, "Mədəniyyətlərin dialoqu" konsepsiyasının müəllifi Vladimir Bibler (1918-2000) anadan olub.

**4 iyul 1927** – Amerika dramaturqu və ssenaristi Nil Saymon (Marvin Neil Simon; 1927-2018) anadan olub. "Qəribə cütlük", "Parkda ayaqyalın" və s. komediyaları ilə məşhurlaşıb.

**5 iyul 1812** – İspan yazıçı-dramaturqu Antonio Qarsia Qutteres (Antonio Garcia Gutierrez; 1812-1884) anadan olub. Dramaturqun "Trubadur" pyesi əsasında italyan bəstəkarı Cüzeppe Verdi eyniadlı opera yazıb.

**5 iyul 1889** – Fransız yazıçısı, rəssam, teatr nəzəriyyəçisi Jan Kokto (Jean Maurice Eugene Clement Cocteau; 1889-1963) anadan olub. "Əllamə Toma", "Ədəbsiz uşaqlar" romanlarının, "Antiqona", "Orfey" pyeslərinin müəllifidir.

**5 iyul 1901** – SSRİ Xalq artisti, rejissor, aktyor, rəssam, yazıçı Sergey Obrazsov (1901-1992) anadan olub. Uzun illər Moskvada Mərkəzi Kukla Teatrına rəhbərlik edib.

**6 iyul 1859** – İsveç şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1916) Karl Qustav Verner fon Heydenstam (Carl Gustaf Verner von Heidenstam; 1859-1940) anadan olub. Əsərləri: "Endimion", "XII Karlın döyüşçüləri" və s.

**6 iyul 1887** – Yəhudi əsilli rus-fransız rəssamı Mark Zaxaroviç Şaqal (Xaskeleviç; 1887-1985) anadan olub. Rəngkarlıq və qrafika əsərləri ilə bədii avanqardın ən tanınmış simalarından biridir.

**Hazırladı: Vüqar ORXAN**

# "Hacı Qara" filminə aid fraqment aşkar edilib

Azərbaycan Dövlət Film Fondu tərəfindən qiymətli arxiv materialları əldə olunub. Fonddan bildirilib ki, şəxsi mənbələrdən daxil olan kinoxronika materiallarının araşdırılması zamanı rejissor Abbas Mirzə Şərifzadənin "Hacı Qara" filminə aid bir fraqment aşkar edilib.




Xatırladaq ki, 1928-ci ildə çəkilmiş filmin kinolenti bu günə gəlib çatmayıb. Buna görə də fondun əməkdaşları kino tədqiqatçısı Ədhəm Qulubəyovun 1960-cı ildə rus dilində çap olunmuş "Azərbaycanda kino sənəti" kitabını əsas götürərək araşdırmalar aparıblar. Kitabın 16-cı səhifəsində görkəmli aktyor Mirzəağa Əliyevin Hacı Qara obrazında fotosu əks olunub.

Məlumata görə, fotonun və videokadrların müqayisəsi zamanı, həmçinin kino lentinin texniki xüsusiyyətləri fondun mütəxəssislərində tam əminlik yaradıb ki, aşkarlanan və kino lentindən köçürülərək rəqəmsallaşdırılan 38 saniyəlik epizod bu günədək bir neçə fotodan başqa heç bir görüntüsü mövcud olmayan "Hacı Qara" filminə aiddir.

Qeyd edək ki, "Hacı Qara" filminin quruluşçu rejissoru Abbas Mirzə Şərifzadə, ssenari müəllifi Cəfər Cabbarlı, operatoru İvan Tartakovskidir. Rollarda Mirzəağa Əliyev, Mustafa Mərdanov, Ağasadıq Gəraybəyli, Sidqi Ruhulla, Mərziyyə Davudova, Hacıağa Abbasov, Əzizə Məmmədova və başqa aktyorlar çəkiliblər.

# Respublika Uşaq Kitabxanasının "yay məktəbi"

## Ev-muzeylərinə virtual ekskursiyalar təşkil olunur

F.Köçərli adına Respublika Uşaq Kitabxanası ümumi təhsil müəssisələrində "yay məktəbi"nin fəaliyyəti ilə əlaqədar Bakı şəhəri üzrə fəaliyyət göstərən ev-muzeylərinə məktəblilər üçün virtual ekskursiyalar təşkil edib.

"Yay məktəbi"nin əsas məqsədi şagirdlərin zəruri bilik və bacarıqlarını möhkəmləndirmək, hərtərəfli dünyagörüşlərinin artırmasını təmin etməklə uşaqlara mədəni xidmət göstərməkdir.

Budəfəki ekskursiyada məktəblilər Xalq şairi Səməd Vurğunun və görkəmli yazıçı-dramaturq, publisist, naşir Cəlil Məmmədquluzadənin Bakıdakı ev-muzeyləri ilə tanış olublar.

"Zoom" platforması üzərindən reallaşan virtual ekskursiyaya Bakı şəhəri üzrə müxtəlif məktəblərin şagirdləri qatılıb.

Məktəblilərə bələdçilər tərəfindən muzeylərdəki eksponatlar haqqında ətraflı məlumat verilib.

Virtual ekskursiyalar şagirdlər tərəfindən maraqla qarşılanıb.

# Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupunun növbəti iclası

Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupunun növbəti plenar iclası keçirilib.

Azərbaycanın UNESCO-dakı Daimi Nümayəndəliyinin rəhbəri, səfir Elman Abdullayevin sədrliyi ilə keçirilən iclasda UNESCO Baş direktorunun müavini Sin Ku, Qoşulmama Hərəkatına üzv və müşahidəçi ölkələrin səfirləri iştirak ediblər.

Əvvəlcə iclasın gündəliyi qəbul edilib və UNESCO yanında Qoşulmama Hərəkatına üzv dövlətlərin yeni səfirləri təqdim olunub.

Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəsi Elman Abdullayev Qoşulmama Hərəkatına ölkəmizin sədrliyi çərçivəsində görülən işlərdən söz açıb.





Səfir Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilatın Təmas Qrupunun "COVİD-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşünün keçirilməsindən bəhs edib, ölkəmizin sədrliyi çərçivəsində fəaliyyətdən ətraflı söhbət açılıb.

UNESCO Baş direktorunun müavini, eləcə də kommunikasiya və informasiya üzrə köməkçisi Sin Ku çıxışında COVİD-19 pandemiyasına qarşı mübarizə səyləri və 2022-2025-ci illər üçün qurumun ortamüddətli strategiyasının əsas istiqamətləri də daxil olmaqla UNESCO-nun strateji transformasiyası haqqında danışıb.

UNESCO yanında Qoşulmama Hərəkatının 2021-ci il martın 30-da keçirilmiş plenar iclasının xülasəsi qəbul olunub.

Plenar iclasda Qoşulmama Hərəkatına üzv dövlətlərin UNESCO-nun müxtəlif orqanlarına namizədlikləri ilə bağlı fikir mübadiləsi aparılıb və onların qarşılıqlı dəstəklənməsi məsələsi müzakirə olunub.

# "Əlvida, Şmidt" Tacikistanda "Qızıl qaranquş" üçün yarışacaq




Tacikistan Respublikasının Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyi və bu təşkilatın yaradılmasının 20-ci ildönümü ilə əlaqədar "Tacikfilm" paytaxt Düşənbədə beynəlxalq bədii və televiziya filmləri festivalı keçirir.

Festivalda 18 ölkəndən filmlər iştirak edəcək. Qaliblər üçün "Qızıl qaranquş" mükafatı və diplomlar təsis edilib. Festivalın müsabiqə proqramına 32 film daxil edilib. Azərbaycan Mədəniyyət Nazirliyinin sifarişi ilə rejissor Əlisəttar Quliyevin "Mozalan" studiyasında lentə alınan "Əlvida, Şmidt" (2019) filmi də festivala dəvət alıb.

Film Azərbaycanda almanların məskunlaşmasının 200 illiyinə həsr edilib. Ekran əsərində Azərbaycanda doğulan alman Emil Şmidtin başına gələn hadisələrdən bəhs olunur. O öz sevgi və xoşbəxtliyini burada tapır. Tragikomediya janrında çəkilən ekran əsəri dostluq və vətənə sevgini, ölkəmizin multikultural dəyərlərini əks etdirir.

"Əlvida, Şmidt filmi 2020-ci ilin sentyabrında Kazan Beynəlxalq Film Festivalının "Rusiya və İslam dünyası" proqramında uğurla təmsil olunub.

Ekran əsərinin ssenari müəllifi Rüstəm Babazadə, quruluşçu rəssamı Əziz Məmmədov, bəstəkarı İsfar Sarabski, icraçı prodüseri Tərlan Babayevdir. Əsas obrazları aktyor Azər Aydəmir, A.S.Qriboyedov adına Tbilisi Dövlət Akademik Rus Dram Teatrından dəvət olunmuş aktrisa Məryəm Kitiya və Əməkdar artist Rasim Cəfər ifa edir. Filmdə həmçinin xalq artistləri Şamil Süleymanlı, Qurban İsmayılov və Əməkdar artist Zemfira Sadıqova rol alıb.

**LALƏ**

# Bakı Fotoqrafiya Evində İordaniya sərgisi

## "Əmman – 100 illik yürüş"

İyunun 30-da İçərişəhərdəki Bakı Fotoqrafiya Evində İordaniya dövlətinin yaradılmasının 100 illiyi münasibətilə "Əmman – 100 illik yürüş" adlı fotosərgi açılıb.

Sərgi İordaniya Haşimilər Krallığının Azərbaycandakı Səfirliyi, Əmman Şəhər Hakimiyyəti və "İçərişəhər" İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə ərsəyə gəlib.

Tədbiri "İçərişəhər" Muzey Mərkəzinin direktoru Əminə Məlikova açaraq bildirib ki, iyulun 4-dək davam edəcək sərgidə İordaniya paytaxtının siyasi, tarixi və mədəni həyatını, şəhərin son yüz ildəki tarixini əks etdirən 40 fotoşəkil nümayiş olunur. Sərgidə Əmman şəhərinin sakinləri, mədəni irsi, memarlıq abidələrinin əks olunduğu fotolar da yer alıb.

İordaniya Haşimilər Krallığının Azərbaycandakı səfiri Sami Abdullah Ğoşeh iki ölkə arasında mövcud olan mədəni əlaqələri yüksək qiymətləndirərək sərgiyə maraq doğuracağına inamını ifadə edib.




Əmman şəhərinin meri Yusif Şavarben video formatda mərasimə qoşularaq tədbir iştirakçılarını salamlayıb və sərginin əhəmiyyətindən söz açıb.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar. Tədbirdə İordaniya Krallığı haqqında tanıtım filmləri nümayiş olunub, bu ölkənin milli musiqisi səslənib.

# Azərbaycan və Rusiya turizm şirkətləri arasında görüşlər



İyunun 29-da Azərbaycanın və Rusiyanın turizm şirkətlərinin iştirakı ilə B2B (Biznesdən biznesə) formatında onlayn görüşlər keçirilib.

Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə Rusiyanın Moskva, Sankt-Peterburq, Yekaterinburq və Kazan şəhərlərinin turizm şirkətləri ilə ümumilikdə 100-ə yaxın onlayn görüş keçirilib.

Görüşlərdə pandemiya dövründə Azərbaycana səfər edən əcnəbilər üçün görülmüş hazırlıq işləri, Rusiya vətəndaşlarının Azərbaycana səfəri zamanı tələb olunan prosedur və qaydalar, həmçinin iki ölkə arasında yeni açılmış aviauçuşlar barədə məlumat verilib.

Son dövrdə Azərbaycanda yaradılmış yeni turizm marşrutları və yeni istifadəyə verilmiş hotellərdən danışılıb, həmçinin bu istiqamətdə şirkətlər arasında ikitərəfli tərəfdaşlığın qurulması məsələləri müzakirə olunub.

Qeyd edək ki, iyunun 10-dan etibarən Rusiya Federasiyası vətəndaşları müəyyən olunmuş şərtlər daxilində hava yolu ilə Azərbaycan ərazisinə səfər edə bilərlər.

## Yeri gəlmişkən...

### Aİ Azərbaycandan səyahətlərə icazə verib

Avropa İttifaqı (Aİ) Azərbaycan da daxil olmaqla 11 ölkəni qurumun təsdiqlənmiş səyahət siyahısına əlavə edib. Qərar iyunun 30-da Aİ səfirlərinin iclasında qəbul olunub.

Yeni qərarla Kanada, Azərbaycan, Ermənistan, Bosniya və Herseqovina, Bruney, İordaniya, Kosovo, Moldova, Monteneqro, Qətər və Səudiyyə Ərəbistanı siyahıya əlavə edilib.

Ötən il pandemiya səbəbindən Aİ xaricindəki ölkələrdən səyahətlər məhdudlaşdırılmışdı. Bu ilin əvvəlində Avropa İttifaqına səfərə icazə verilən ölkələrin ilkin siyahısı elan edilmişdi.

# 1,7–2,4 trilyon dollar azalma

## BMT turizmdəki tənəzzül ilə bağlı iqtisadi itkiləri hesablayıb

Turizm sektorunda koronavirus pandemiyasının səbəb olduğu tənəzzül 2021-ci ildə dünyada ümumi daxili məhsulun (ÜDM) 1,7–2,4 trilyon dollar azalması ilə nəticələnə bilər.

Bu proqnoz BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının Cenevrədə dərc olunan hesabatında əksini tapıb. Bildirilir ki, 2021-ci ilin ikinci yarısında beynəlxalq turizm sahəsi canlanacaq, buna baxmayaraq pandemiyadan öncəki 2019-cu illə müqayisədə ciddi zərər gözlənilir.

Hesabatda vəziyyətin bir neçə mümkün inkişaf ssenarisi əks olunub. Ən pessimist ssenariyə görə, bu il beynəlxalq səyahətlərin miqdarı 75 faiz azalacaq. Bu halda turizm sektoru 948 milyard dollar itirəcək, dünyada ÜDM həcmi 2,4 trilyon dollaradək azalacaq. İkinci ssenari turizm səfərlərinin təxminən 63 faiz azalmasını və qlobal ÜDM-in 1,7 trilyon dollar azalmasını nəzərdə tutur. Üçüncü ssenariyə görə, koronavirusa qarşı vaksinasiya səviyyəsinin aşağı olduğu ölkələrə 75 faiz az insan səyahət edəcək, əhalinin əhəmiyyətli hissəsinin peyvənd olunduğu ölkələrdə isə turizm axını cəmi 37 faiz azalacaq. Bu halda dünya iqtisadiyyatı 1,8 trilyon dollar zərərlə üzləşəcək.

# Dünyanın ən böyük radioteleskopu

SKA (Square Kilometre Array) layihəsinin iştirakçısı olan dövlətlər eyniadlı radioteleskopun inşası layihəsini rəsmən təsdiqləyiblər.

Avropa Astronomiya Cəmiyyətinin (EAS) illik görüşündə çıxış edən layihə rəhbərləri Avstraliyanın qərbində yerləşəcək radioteleskopun inşasının 2028-ci ildə başa çatacağını deyib.

"Bu anı 30 ildir gözləyirdik. Planetimizdəki ən böyük elmi obyektin inşasına sərmayə qoymaqla bəşəriyyət növbəti nəhəng sıçrayışı həyata keçirib. Kainatın bir çox sirrini öyrənməkdə bizə kömək edəcək ən böyük və ən mürəkkəb iki radioteleskop quracağıq", – deyə SKA rəsədxanasının baş direktoru Filip Daymond bildirib.

Onun sözlərinə görə, rəsədxananın yeddi iştirakçı ölkəsi – Avstraliya, Çin, İtaliya, Niderland, Portuqaliya, Cənubi Afrika Respublikası və Böyük Britaniya tikinti planlarını rəsmən təsdiqləyib. Üzv ölkələr teleskopun inşasına və istismarına 2 milyard avrodan çox vəsait ayıracaq.



Artıq rəsədxana ərazisində tikinti işlərinə start verilib, lakin tam həcmli inşaat gələn ilin əvvəlində, SKA layihəsinə üzv olan bütün ölkələrin müəssisələri və tədqiqat mərkəzləri ilə müqavilələr imzalandıqdan sonra başlayacaq.

Qeyd edək ki, layihənin Avstraliya hissəsində inşaat işlərinin 2028-ci ildə tamamlanması planlaşdırılır. SKA teleskopu 1 kvadratkilometr sahəsi olan nəhəng virtual antenada birləşən ayrı-ayrı 3 min antenadan ibarət olacaq. Alimlər ilk elmi məlumatların antena və məlumat emalı sisteminin istismara verilməsindən sonrakı bir neçə il ərzində alınacağını gözləyirlər. Rəsədxananın azı 50 il fəaliyyət göstərəcəyi deyilir.

Türk dünyası

# Türkiyə yeni süni peykləri ilə orbitdəki gücünü artırır

Türkiyənin növbəti süni peyki – "TürkSAT 5A" fəaliyyətə başlayıb. Prezident Rəcəb Tayyib Ərdoğan bu münasibətlə Ankaranın Gölbaşı bölgəsindəki "TürkSAT" Mərkəzində təşkil olunan mərasimdə çıxış edib.



Türkiyənin peyk və kosmos sənayesindəki yeniliklərindən danışan dövlət başçısı bildirib ki, ilin sonunadək "TürkSAT 5B", gələn il isə "TürkSAT 6A" orbitə göndəriləcək. "TürkSAT 5B" peykinin istifadəyə verilməsindən sonra Türkiyə orbitdəki ötürücülük imkanlarını 15 qat artıracaq. Beləliklə, Aralıq, Egey və Qara dənizlərin sahilyanı ölkələri, Avropa, Yaxın Şərq, Afrikanın əsas hissəsində yerləşən ölkələr bundan istifadə edə biləcəklər.

"TürkSAT 5A" cari il yanvarın 8-də ABŞ-ın Florida ştatındakı "Canaveral" kosmodromundan "Falcon-9" kosmik daşıyıcısı ilə orbitə yola salınıb. Beləliklə, Türkiyə fəzada peyklərini artırmaqda olan ölkələr sırasında öz yerini qoruyur. "TürkSAT 5A" ilə birlikdə "TürkSAT 3A", "TürkSAT 4A" və "TürkSAT 4B" peyklərinin də fəaliyyəti davam edəcək.

# 679 milyon dollarlıq 25 müqavilə imzalanıb

Özbəkistan Türkiyə ilə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə çatdırılmasından məmnundur. Bu fikri Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkədə səfərdə olan Türkiyənin vitse-prezidenti Fuat Oktayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə vurğulayıb.



Görüşdə ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, birgə layihələrin həyata keçirilməsi, Türkiyə şirkətlərinin və investorlarının Özbəkistanda fəaliyyəti müzakirə edilib.

Daşkənddə keçirilən Özbəkistan-Türkiyə biznes-forumunda iqtisadiyyatın müxtəlif sahələrini əhatə edən 679 milyon dollar dəyərində 25 müqavilə imzalanıb. Sənədlər energetika, turizm, yüngül sənaye, kənd təsərrüfatı, tikinti materiallarının istehsalı, əczaçılıq, kimya sənayesi və digər sahələrə bağlıdır.

Biznes-foruma Özbəkistan Baş nazirinin müavini, investisiya və xarici ticarət naziri Sardor Umurzakov və Türkiyənin vitse-prezidenti Fuat Oktay, hər iki ölkədən nazirlər, işgüzar dairələrin 250-dən çox nümayəndəsi qatılıb.

F.Oktayın rəhbərliyi ilə Türkiyə nümayəndə heyəti qədim Səmərqənd və Buxara şəhərlərində də olub.

# "Munabiə" üçün Qran-pri

İyunun 24-dən 28-dək Londonda keçirilmiş Avrasiya Yaradıcılıq Gildiyasının beynəlxalq kinofestivalında ("ECG Film Festival") Qran-pri mükafatı Qırğızıstan istehsalı olan "Munabiə" filminə verilib.



Dünyanın 17 ölkəsini təmsil edən 60 filmin arasında ən yüksək mükafata layiq görülmüş filmin quruluşçu rejissoru Taalaybek Kulmendeyevdir.

Filmin qəhrəmanı həyat sınaqlarından keçmiş, iztirablar, təhqirlər yaşamış Munabiə adlı gözəl, müstəqil və müdrik qadındır. Cəmiyyətdəki total qəddarlıq şəraitində öz şərəf və ləyaqətini qorumağı bacaran tək-tük insanlardan bəhs edən film yeniyetməlik çağından uzaqlaşmış qırğız Romeo və Cülyettasının sevgi əhvalatıdır. Tanınmış qırğız yazıçısı Kazat Akmatovun "Munabiə" novellası ötən əsrin 70-ci illərində öz ölkəsində "İlin ən yaxşı əsəri" kimi də dəyərləndirilib.

2017-ci ildə ekrana çıxmış "Munabiə" filmində əsas rollarda Meyrim Atantayeva, Sakıbek Karabayev, Ulan Sultanqaziyev və Qulziyət Suranşiyeva çəkiliblər.

**GÜLCAHAN**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 1197
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.